QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 045 (5765) **7 mart** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Dövlət hər zaman vətəndaşının yanındadır!

*Prezident İlham Əliyev Ağsuda zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlərlə yerində tanış olub*



Səh 2

5

Əli Əhmədov: "Ötən il Azərbaycan iqtisadiyyatı 1,4 faiz artıb"



9

Həftəlik qəzetlərin mətbəə xərcləri KİVDF tərəfindən ödəniləcək



12

Azərbaycan xalqının düşməni iş başında!



# Dövlət hər zaman vətəndaşının yanındadır!

## *Prezident İlham Əliyev Ağsuda zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlərlə yerində tanış olub*



### *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan qadınlarına fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Fazil Qurbanovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında elmi əlaqələrin inkişafında xidmətlərinə və səmərəli diaspor fəaliyyətinə görə Fazil Səməd oğlu Qurbanov “Şöhrət” ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.









**Fevralın 5-də və 6-da baş vermiş zəlzələ Şamaxı, İsmayıllı və Ağsu rayonlarında bir sıra fəsadlar törətmişdi. Dövlətimizin başçısının sərəncam və tapşırıqlarına əsasən təbii fəlakətin törətdiyi fəsadlar aradan qaldırılır.**

AZƏRTAC xəbər verir ki, Sərəncamın icrası ilə əlaqədar görülən işlərlə yerində tanış olmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Ağsu rayonuna səfərə gəlib. Qeyd edək ki, fevralın 5-də və 6-da episentri Ağsu və İsmayıllı rayonlarının ərazisində olan zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında fərdi evlər qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərinə ziyan dəymişdi. Təbii fəlakətdən dərhal sonra Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilib, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilib.

*Ardı Səh. 3*

# Dövlət hər zaman vətəndaşının yanındadır!

## Prezident İlham Əliyev Ağsuda zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlərlə yerində tanış olub







Əvvəli-Səh-2

Hadisənin səhəri günü dövlətimizin başçısı zəlzələ zonasına gələrək sakinlərlə görüşmüş, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılacağını bildirmişdi. Prezident İlham Əliyev elə buradaca əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini vermişdi. Elə həmin gün dövlətimizin başçısı baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında evlərə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan ilkin olaraq iki milyon manat ayrılması haqqında Sərəncam imzalamışdı. Bundan sonra hər 3 rayonda dərhal tikinti və təmir işlərinə başlanmışdı.

Dövlətimizin başçısı Ağsuda zəlzələ nəticəsində zərər çəkən evlərin yerində yenidən tikilməkdə olan evlərlə tanış oldu. Prezident İlham Əliyev Xasayev küçəsinin sakini Gülarə Hökmrəvanın ailəsi üçün tikilməkdə olan yeni evə baxdı, ev sahibinin oğlu Tahir Hökmrəvanla söhbət etdi. Burada fövqəladə hallar naziri Kəmaləddin Heydərov dövlətimizin başçısına zəlzələ zonasında görülən işlər barədə məlumat verdi. Bildirildi ki, yaradılmış komissiyalar tərəfindən əhalinin müraciətlərinə əsasən indiyədək Şamaxıda 4893, Ağsuda 1461, İsmayıllıda 919 evə baxış keçirilib. Müəyyən olunub ki, Şamaxıda 244, Ağsuda 150, İsmayıllıda 97 ev kəskin qəzalıdır. Şamaxıda 1111, Ağsuda 265, İsmayıllıda 262 evin bərpagücləndirməsinə ehtiyac var. Şamaxıda 1800, Ağsuda 1022, İsmayıllıda 354 evin isə təmirə ehtiyacı var. Bütövlükdə bu rayonlarda 88 ev sökülməyə hazırlanıb, 65 ev sökülüb və sökülməyə başlanıb, həmçinin 38 evin tikintisi aparılır.

Prezident İlham Əliyev tikinti-bərpa işlərinin sürətlə və keyfiyyətlə davam etdirilməsi ilə bağlı tapşırıqlarını verdi.

Sonra dövlətimizin başçısı Firdovsi küçəsində Həcər Zamanovanın ailəsi üçün inşa edilən yeni evdə görülən işlərlə tanış oldu. Məlumat verildi ki, dağılmış evin yerində tikilən yeni ev 3 otaqdan ibarət olacaq. Burada normal yaşayış üçün hərtərəfli şərait yaradılacaq.

Prezident İlham Əliyev Ağsu şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi. Daha sonra Prezident İlham Əliyev rayon sakinləri ilə görüşdü, onlarla söhbət etdi. Dövlətimizin başçısı Ağsu sakinlərinin ərizələrini qəbul etdi. Görüşdə zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlər barədə danışıldı, dövlətimizin başçısı sakinləri narahat edən məsələləri dinlədi. Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

# Prezident İlham Əliyev Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib



Prezident İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikdə dövlətimizin başçısı milli varlığımızın ifadəsi olan zəngin mədəni-mənəvi irsimizin, ana dilimizin və adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanmasında Azərbaycan qadınlarının müstəsna xidməti olduğunu bildirir. Prezident qeyd edir ki, tariximizin mürəkkəb sosial-siyasi dəyişikliklərlə müşayiət olunduğu dövrlərdə qadınlar cəmiyyətin sarsılmaz mənəvi dayağına çevriliblər. XX yüzilliyin ilk onilliklərində, bəzi qabaqcıl ölkələrin qadınlarından daha əvvəl seçki hüququ qazanaraq ictimai və mədəni həyatın müxtəlif sahələrində fəal iştirak etmələri onların gələcək uğurlarının da rəhni olub. Qürurverici haldır ki, müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı məhz mənəviyyatında millikliklə müasirliyin əsl vəhdətini yaratmış Azərbaycan qadını atıb.

Dövlətimizin başçısı vurğulayır ki, Azərbaycan qadınları maarifpərvər sələflərinin davamçıları olaraq son yüz ildə ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin yeni əsaslar üzərində qurulması işində əzmkarlıq göstərib və nailiyyətlərlə dolu parlaq bir yol keçiblər. Onlar müstəqilliyin bərpasından sonra istiqlal ideallarına sədaqətlə milli dövlətçiliyin təməlinin möhkəmləndirilməsi və ölkəmizin hazırkı simasının müəyyənləşməsində mühüm rol oynayıb, bu gün də bilik və bacarıqlarını dinamik inkişaf yolunda inamla irəliləyən respublikamızın iqtisadi, mədəni və elmi potensialının artırılmasına sərf edirlər. Yüksək ictimai mövqe və nüfuzları Azərbaycan qadınlarının hüquq və azadlıqlarının tam təmin edilməsinin nəticəsidir və müasir həyatımızın ən əlamətdar hadisələrindəndir.

"Əminəm ki, siz Azərbaycan xanımları ailə dəyərlərimizin bundan sonra da layiqincə yaşadılmasına çalışacaq, gənc nəslin Vətənə, torpağa məhəbbət, müstəqil dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək, ölkəmizin davamlı yüksəlişi naminə töhfələrinizi əsirgəməyəcəksiniz", - deyə Prezident təbrikdə qeyd edir.

# "Qarabağ münaqişəsinin həllində Türkiyə daim Azərbaycanın yanındadır"

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə parlamenti sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Türkiyə Böyük Millət Məclisinin sədri seçilməsi münasibətilə Mustafa Şentopu təbrik etdi və onun bu statusda ilk səfərini Azərbaycana etməsinin məmnunluq doğurduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan və Türkiyə arasında ilk yüksək səviyyəli səfərlərin qarşılıqlı şəkildə həyata keçirilməsi adət-ənənə xarakteri daşıyır və bu, iki ölkənin qardaşlığının və dostluğunun bariz nümunəsidir. Dövlətimizin başçısı bu baxımdan keçən il Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən paradda Azərbaycan və Türkiyə hərbçilərinin çiyin-çiyinə birgə yürüşünü xatırlatdı. Azərbaycan ilə Türkiyə arasında tərəfdaşlığın bu gün yüksək səviyyədə olduğunu və uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev ölkələrimizin üçtərəfli və dördtərəfli regional formatlarda da əməkdaşlığını vurğuladı. Dövlətimizin başçısı Azərbaycan və Türkiyənin birgə səylərlə həyata keçirdiyi önəmli regional təşəbbüsləri, o cümlədən artıq istismara verilmiş TANAP, "STAR" neft emalı zavodu kimi irimiqyaslı layihələri qeyd etdi. Prezident İlham Əliyev, həmçinin Azərbaycan və Türkiyənin bütün məsələlərdə bir-birini dəstəklədiyini, beynəlxalq təşkilatlarda, o cümlədən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində sıx əməkdaşlıq etdiyini nəzərə çatdırdı.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop bu vəzifəyə seçilməsindən sonra ilk səfərini Azərbaycana etməsindən şərəf duyduğunu bildirdi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın iki ölkənin olmadığını deyərək əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. O da öz növbəsində, TANAP, TAP və "STAR" neft emalı zavodu kimi irimiqyaslı layihələrin ölkələrimizi daha da yaxınlaşdırdığını vurğuladı. Mustafa Şentop Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin daim Azərbaycanın yanında olduğunu, beynəlxalq hüququ və ədaləti dəstəklədiyini dedi. O, bu il Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə toplantısına ev sahibliyi edəcəyini bildirərək ölkələrimizin Türk Şurası, TürkPA, TÜRKSOY, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və digər təsisatlarda uğurla əməkdaşlıq etdiyini vurğuladı. Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

# "Azərbaycan münaqişənin tezliklə ədalətli həllində ən maraqlı tərəfdir"

*Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Toivo Klaar Avropa İttifaqının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə müsbət töhfə verməkdə çox maraqlı olduğunu ifadə etdi.

Prezident İlham Əliyev Avropa İttifaqı Komissiyasının rəhbərliyi və bir sıra komissarlarının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq əsasında həll edilməsi, mövcud status-kvonun qeyri-dayanıqlı olması, danışıqların mövcud format əsasında davam etdirilməsi və danışıqlara qeyd-şərt qoyulmasının qəbuledilməzliyi barədə ictimai açıqlamalarının məmnunluq doğurduğunu və Azərbaycanın bunu dəstəklədiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və danışıqların formatı dəyişdirilə bilməz. Azərbaycanın münaqişənin tezliklə ədalətli həllində ən maraqlı tərəf olduğunu deyən Prezident İlham Əliyev işğal olunmuş ərazilərin azad edilməsinin danışıqlar prosesinin həmişə vacib komponenti olduğunu vurğuladı. Dövlətimizin başçısı Ermənistan tərəfindən verilən ziddiyyətli rəsmi açıqlamaların qəbuledilməz olduğunu və danışıqlar prosesinə əngəl yaratdığını qeyd edərək beynəlxalq ictimaiyyətin bunu ciddi şəkildə nəzərə almasının və Ermənistana ünvanlı bəyanatların çatdırılmasının vacibliyini qeyd etdi.



Görüşdə, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı və ölkəmizin Şərq Tərəfdaşlığı Proqramında iştirakına dair geniş fikir mübadiləsi aparıldı.

# Əli Əhmədov: "Ötən il Azərbaycan iqtisadiyyatı 1,4 faiz artıb"



2018-ci ildə Azərbaycan iqtisadiyyatı 1,4 faiz artıb. AZƏRTAC xəbər verir ki, bu barədə Baş nazirin müavini Əli Əhmədov martın 6-da Bakıda keçirilən "İqtisadiyyatın şaxələndirilməsi - özəl sektorun rolu üzrə yüksək səviyyəli Forum"da deyib.

Əli Əhmədov bildirib ki, keçən il qeyri-neft sektorunda 2 faizdən çox, kənd təsərrüfatında isə 3 faizdən artıq iqtisadi artım Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, aparılan islahatların nəticəsi kimi qiymətləndirilir.

Baş nazirin müavini qeyd edib ki, bir neçə ilə Azərbaycanın əmək bazarına 120 minədək işçi qüvvəsi daxil olacaq. Bu isə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində kiçik və orta sahibkarlığın inkişafı nəticəsində baş verəcək.

# Akademik Fazil Qurbanov: "Rusiyanın Azərbaycan icması Stavropolda yol qəzasında xəsarət alanlara hər cür kömək göstərir"



Rusiyanın Azərbaycan İcmasının rəhbəri, akademik Fazil Qurbanov Stavropol diyarının Azərbaycan İcmasının rəhbəri Fəxrəddin Yarıyevlə əlaqə saxlayıb və ona yol qəzasında xəsarət alanlara hər cür kömək göstərilməsi barədə tapşırıq verib. F.Qurbanov AZƏRTAC-a bildirib ki, F.Yarıyevin sözlərinə görə o, yerli hakimiyyət orqanlarının nümayəndələri ilə birlikdə hadisə yerindədir və xəsarət alanlara xəstəxanada bütün zəruri tibbi yardım göstəriləcək.

F.Yarıyev daha sonra əlavə edib ki, xəsarət alanların və həlak olanların doğmaları ilə daim əlaqə saxlanılır, onlara hərtərəfli kömək göstərilir və diyarın Azərbaycan diasporu həlak olanların cəsədlərinin Azərbaycana çatdırılması ilə bağlı iş aparır. Stavropol diyarının qubernatoru Vladimir Vladimirov başda olmaqla yerli hakimiyyət orqanları vəziyyətə nəzarət edirlər. Akademik Fazil Qurbanov həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verib, xəsarət alanların tezliklə sağalmalarını arzu edib.

# "Ermənistan hakimiyyəti hər vəchlə danışıqların gedişinə və bununla da münaqişənin həllinə mane olur"



Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar uzun illərdir davam edir. Azərbaycan tərəfi münaqişənin həlli ilə bağlı mütəmadi olaraq konstruktiv mövqe nümayiş etdirib. Əfsuslar olsun ki, erməni tərəfi buna həmişə mənfi cavab verib. AZƏRTAC xəbər verir ki, bu fikirlər "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin sədri Tural Gəncəliyev ilə ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayerin rəhbərlik etdiyi nümayəndə heyəti arasında keçirilən görüşdə səsləndirilib.

T.Gəncəliyev qonaqlara münaqişənin səbəbləri və nəticələri barədə ətraflı məlumat verib. Bildirilib ki, münaqişə nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunub, 1 milyondan çox qaçqın və məcburi köçkün, o cümlədən Dağlıq Qarabağda yaşayan 80 mindən artıq azərbaycanlı öz doğma yurdlarından didərgin düşüb. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə Azərbaycan ərazilərindən işğalçı qüvvələrin dərhal və qeyd-şərtsiz çıxarılmasını və bu torpaqlardan zorla qovulmuş insanların öz evlərinə geri qayıtmasını tələb edir. Təəssüf ki, erməni tərəfi bu qətnamələrin tələblərini hələ də yerinə yetirmir.

Tural Gəncəliyev, həmçinin qeyd edib ki, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması erməni icması ilə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri və ərazi bütövlüyü çərçivəsində sülh şəraitində konstruktiv dialoqun aparılmasına və təmasların bərpa edilməsinə hazırdır. Azərbaycan dövləti münaqişənin sülh yolu ilə həllinə çalışır. Lakin Ermənistan hakimiyyəti hər vəchlə danışıqların gedişinə və bununla da münaqişənin həllinə mane olur. Mark Şnayer rəhbərlik etdiyi fondun Azərbaycanın münaqişənin həlli məsələsində əsas götürdüyü sülh çağırışlarının bütün dünyaya çatdırılmasına səy göstərəcəyini deyib.

# Səbail rayon təşkilatı 8 Mart Beynəlxalq Qadınlar Gününü qeyd edib





Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatı və Mahnı Teatrının birgə təşkilatçılığı ilə "8 Mart Beynəlxalq Qadınlar Günü" münasibətilə tədbir keçirib.

Tədbirdə YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı professor Şəmsəddin Hacıyev çıxış edərək, müasir dövrdə Azərbaycan qadınının ölkənin ictimai-siyasi həyatında fəal rol oynamasından söz açıb. Qeyd edib ki, ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli rola malik olan qadınlar Prezident İlham Əliyevin uğurlu siyasəti ətrafında sıx birləşib. Azərbaycan qadınının ölkəmizi beynəlxalq müstəvidə layiqincə təmsil etdiyini deyən natiq, söyləyib ki, bu gün qadınlarımız dövlət qurumlarında da lazımi səviyyədə təmsil olunurlar.

Təşkilat sədri bildirib ki, Səbail rayonunda yaşayan xanımlar öz səmərəli ictimai-sosial fəaliyyətləri ilə daim seçilib. Xanımların bütün uğurlarının və fəaliyyətlərinin hər zaman dəstəklədiyini qeyd edən Ş.Hacıyev onları "8 Mart Beynəlxalq Qadınlar Günü" münasibətilə ürəkdən təbrik edib.

Sonra rayonun ictimai-siyasi həyatında xüsusi fəallığı ilə seçilən bir qrup qadına Fəxri Fərmanlar və hədiyyələr təqdim olunub.

Tədbir konsert proqramı ilə davam edib.

**R.HÜSEYNOVA**

# Mehman İsmayılov: Milli-mənəvi dəyərlər xalqımızın kimlik vəsiqəsidir



Ulu Öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin gücləmnməsi və inkişafının qarantı olan mənəvi dəyərlərimizin qorunmasına xüsusi diqqət ayırır, xüsusilə bu dəyərlərin gənclər arasında təbliğini ən vacib məsələlərdən biri hesab edirdi. Ulu Öndərin bu siyasəti Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Dövlətimizin başçısı dilimizin, dinimizin mədəniyyətimizin, ümumilikdə dəyərlər sistemimizin qorunması və inkişafına xüsusi diqqət göstərir. Prezidentin və birinci xanım Mehriban Əliyevanın mədəniyyət xadimləri ilə görüşü bunu bir daha təsdiqlədi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov bildirib. O qeyd edib ki, rəhbərlik etdiyi Fond fəaliyyətə başladığı gündən mənəvi dəyərlərimizin, o cümlədən dini dəyərlərin qorunması və inkişafı sahəsində müxtəlif layihələr həyata keçirir. Fondun əsas fəaliyyət istiqamətlərindən biri rəsmi təyinatı olan din xadimlərinə maddi dəstək göstərilməsidir. Keçən il təqribən 1060 din xadiminə aylıq maliyyə vəsaiti ödənilib. Bu proses cari ildə də davam etdirilir. Yanvar ayından etibarən 1000 nəfərdən çox din xadiminə maddi dəstək göstərilməsinə başlanılıb.

M.İsmayılov qeyd edib ki, Fond mənəvi dəyərlərimizin araşdırılması və qorunması istiqamətində müxtəlif layihələr icra edir, maarifləndirmə işləri aparır. Bu layihələr əsasən Azərbaycanda tarixən mövcud olan dinlərarası və məzhəblərarası dostluq və qardaşlığın möhkəmlənməsi, məktəblilər və gənclər arasında tarixi-mədəni abidələrimizin, dilimizin, ənənələrimizin, ümumilikdə dəyərlərimizin təbliği, onlara milli şüurun, vətənpərvərliyin və dəyərlər sistemimizin aşılanması kimi mövzuları əhatə edəcək. Ölkəmizin fərqli bölgələrindən olan din xadimlərinin iştirakı ilə "Vəhdət dəyərimizdir", "Tolerant Azərbaycan" layihələrinin həyata keçirilməsi planlaşdırılır.

"Milli-mənəvi dəyərlər xalqımızın kimlik vəsiqəsidir. Bir xalqın və ya bir ölkənin digər xalqlar və ölkələr arasındakı yeri həm də onun milli-mənəvi dəyərləri ilə ölçülür. Azərbaycan xalqı zəngin dəyərlərə sahibdir. İndi ki, qloballaşma şəraitində bu dəyərlərin qorunması və təbliği mühüm əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl bu bizim milli varlığımız və mədəniyyətimizlə bağlı məsələdir. Dəyərlərimizi qorumaq milli kimliyimizi hifz etmək, onların təbliği isə mədəniyyətimizin təbliği deməkdir. Müasir dünyada kimliklərin, mədəniyyətlərin və dəyərlərin təbliği və tanıdılması üçün imkanlar daha genişdir və biz bu imkanlardan maksimum istifadə etməliyik", - deyə Mehman İsmayılov bildirib.

# Qadına, anaya münasibətin ən unikal nümunəsi məhz Azərbaycandır

***- Nurlana xanım, söhbətimizə əvvəlcə Azərbaycanda həyata keçirilən dövlət qadın siyasətinin səciyyəvi xüsusiyyətləri barədə fikirlərinizi öyrənərək başlamaq istərdik...***

- Azərbaycan dünyada nümunəvi və mütərəqqi inkişaf modeli ilə fərqlənir. Bu inkişafı təmin edən isə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin Onun layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. Bunun nəticəsidir ki, cəmiyyət həyatının bütün sahələrində tərəqqi və yüksək vətəndaş fəallığı müşahidə edilir. Bu baxımdan, Azərbaycan qadınları da müxtəlif sahələrdə - elm, təhsil, mədəniyyət, incəsənət və digər sahələrdə uğurla fəaliyyət göstərirlər, dövlət idarəçiliyində, qanunvericilik orqanında müvəffəqiyyətlə təmsil olunurlar. Yeni Azərbaycan qadınları bu gün dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak edərək Vətənimizin sosial-iqtisadi, elmi-intellektual potensialının artırılmasına, milli dəyərlərimizin və mədəniyyətimizin təbliğinə, inkişafına layiqli töhfələrini verirlər. Elə Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının (YAP) sıralarında yer alan intellektual, ləyaqətli və milli maraqların qətiyyətli müdafiəçisi kimi çıxış edən qadınlarımız idarəetmədə, o cümlədən qanunvericilik orqanında səmərəli, məqsədyönlü, milli-mənəvi dəyərlərə əsaslanan fəaliyyətləri ilə fərqlənirlər. Onlar, həmçinin ölkəmizi beynəlxalq müstəvidə ləyaqətlə təmsil edərək Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırırlar.

Azərbaycan qadını Vətənin bugünkü yüksəlişinin mödhiş sınaqlardan keçərək bu əmin-aman günlərimizə necə yetişdiyini heç bir zaman unutmayacaq. Bu bütövlüyü qorumaq üçün özünü səfərbər edərək əməyi, zəhməti, ağlı, elmi, bacarığı, sədaqəti ilə bu yüksəlişə dayaq olacaq. Xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm ki, Azərbaycan qadınının bugünkü fəallığının, cəmiyyət həyatının müxtəlif sahələrdə uğurla və ləyaqətlə təmsil olunmasının təmin olunmasında Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq siyasətinin təsiri misilsizdir.

Azərbaycanda qadın hərəkatının genişlənməsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra başlayıb. Bu hərəkat Ulu Öndərin rəhbərlik etdiyi dövlətdə qadınlarımıza yüksək etimadın göstərilməsi, onların daim irəliyə çəkilməsi ilə səciyyələnir. Əminliklə söyləmək olar ki, Azərbaycanın dövlətçilik tarixində Ulu Öndər Heydər Əliyevə qədər Azərbaycan qadınını fikrən və ruhən pərvazlandıran, onu böyük cahanşümul işlərə ruhlandıran, onun cəmiyyətdə layiq olduğu yeri təmin edən ikinci bir dövlət rəhbəri olmayıb. Bu, tarixi gerçəklikdir və Azərbaycan qadınına olan yüksək hörmət, diqqət, qayğı və ehtiramın əyani ifadəsidir.



**YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü, Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyevanın yap.org.az-a müsahibəsi**

Bilirsiniz ki, Ümummilli Lider Heydər Əliyevin müvafiq qərarı ilə 1995-ci ildə Yeni Azərbaycan Partiyasının Qadınlar Şurası yaradıldı. Bu zərif və eyni zamanda, güclü zümrəni partiyamızın sıralarına dəstə-dəstə gətirən amil qadınlarımızın Heydər Əliyev zəkasına, Onun müdrik siyasətinə olan böyük inam və etibar idi. Azərbaycan qadınları Ulu Öndərin rəhbərlik etdiyi ölkəmizin tərəqqi yolunda inamla irəliləyərək böyük zirvələr fəth edəcəyinə əmin idilər. Onlar inanırdılar ki, övladları yalnız Heydər Əliyevin ideyaları və siyasəti ilə idarə olunan cəmiyyətdə xoşbəxt ol biləcəklər. Bu sarsılmaz inama malik olan Azərbaycan qadınları YAP-ın sıralarında böyük bir orduya çevrilərək, cəmiyyət həyatının müxtəlif sahələrində daha fəal iştirak edərək ölkəmizin inkişafına layiqli - dəyərli töhfələr verməyə davam etdilər. Beləliklə, Ümummilli Lider Heydər Əliyev bununla partiya sıralarına həm də ana qayğısı və şəfqəti gətirmiş oldu.

Sevindirici haldır ki, bu siyasət Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, cəmiyyətin digər təbəqələrindən olan insanlar kimi, qadınlarımız da yüksək diqqət və qayğı ilə əhatə olunurlar. Bu gün Azərbaycan qadınları dövlətin onlara göstərdiyi yüksək diqqətdən razıdırlar, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti qətiyyətlə dəstəkləyirlər. Çünki onlar görürlər ki, bu siyasət inkişafa, firavanlığa xidmət edir, Azərbaycanın qüdrətinin daha da artmasını, ölkəmizin əzəmətli və möhtəşəm nailiyyətlər qazanmasını təmin edir. Azərbaycan qadınları həm də ölkəmizdə həyata keçirilən mütərəqqi gənclər siyasətinin əhəmiyyətini və nəticələrini bilirlər, onlar anlayırlar ki, bu siyasət övladlarının xoşbəxtliyinə, səadətinə xidmət edir.

Azərbaycan qadını Vətən üçün milli-mənəvi dəyərlərimizin qoruyucuları, adət-ənənələrimizin yaşadıcıları olan, nəsillər arasında varisliyi ləyaqətlə davam etdirən övladlar tərbiyə edib yetişdirirlər. Onların tərbiyə etdikləri gənclər ölkəmizin inkişafına layiqli töhfələr verir, Azərbaycanı beynəlxalq səviyyədə uğurla təmsil edirlər. Azərbaycan analarının tərbiyə etdiyi övladların Vətən qarşısında bu cür xidmətlər göstərməsi həm də qadınlarımızın hünəri və fərasətinin əyani ifadəsidir. Azərbaycan analarının tərbiyə etdiyi gənclik həm milli-mənəvi dəyərlərə bağlıdır, həm də mütərəqqi dəyərləri özündə ehtiva edir. Onlar möhkəm əqidəyə sahibdirlər. Biz bunun örnəyini bir çox nümunələrin timsalında göstərə bilərik. Heç uzağa getməyək, aprel döyüşləri zamanı Azərbaycan gəncliyinin nümayəndələri böyük cəsarət və rəşadət nümunəsi ortaya qoydular. Azərbaycan gəncliyinin yüksək vətənpərvərlik ruhu mənfur qonşularımıza, həmçinin bütün dünyaya bir daha bəlli oldu. Əlbəttə, bu nümunələrin sayını istənilən qədər artırmaq olar, amma təkcə bu örnək bütün deyilənləri sübuta yetirir.

Azərbaycan gəncliyi müxtəlif istiqamətlərdə uğurla fəaliyyət göstərməklə yanaşı, yüksək təhsillə yiyələnən, milli-mənəvi dəyərlərin daşıyıcı olan fəal təbəqə kimi çıxış edirlər. Bu gün Bakı Slavyan Universitetində (BSU) də yüksək intellektual potensiala malik olan, vətənpərvər gənclər təhsil alırlar, universitet və cəmiyyət həyatında fəallıqları ilə seçilirlər. Ümumiyyətlə, Bakı Slavyan Universiteti Azərbaycan ilə slavyan ölkələri arasında intellektual körpü rolunu oynayır. Universitetimiz ilə slavyan ölkələrinin ali təhsil müəssisələri arasında çox sıx və səmərəli əməkdaşlıq mövcuddur. Cari ilin aprel ayında BSU ilə Moskva Dövlət Linqvistik Universitetinin birgə beynəlxalq konfransı keçiriləcək. Bu yaxınlarda Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universiteti tərəfindən Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirəsini yad etmək məqsədilə keçirilən "54-cü ulduz yürüşü" adlı beynəlxalq tədbirdə Bakı Slavyan Universitetinin bir qrup fəal tələbəsi də iştirak edib. Milli geyimdə olan tələbələrimizin Azərbaycan mədəniyyətini və tarixini Belarusda layiqli səviyyədə təmsil etmələri rektor, professor Aleksandr Juk tərəfindən müsbət qarşılanıb. Bundan başqa, bu il Bakı Slavyan Universiteti Azərbaycan Slavyan Gənclərinin Birinci Forumuna ev sahibliyi edib. Forum Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Slavyan Gəncləri Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

Bütövlükdə, Universitetimiz hər zaman gənclərin fəallığının və intellektual potensialının artırılmasına, cəmiyyət həyatında və beynəlxalq müstəvidə aktiv təmsil olunmalarına xüsusi diqqət yetirir.

***- Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsinə, milli maraqlardan irəli gələn strateji əhəmiyyətli vəzifələrin reallaşdırılmasına xidmət edən səmərəli fəaliyyəti ilə xalqımızın dərin rəğbətini və sevgisini qazanıb. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti həm də qadınlar üçün parlaq nümunədir. Bununla bağlı düşüncələriniz nədən ibarətdir?***

- Azərbaycanın Birinci vitse-prezidenti, YAP-ın Sədr müavini, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın milli maraqlara, ümumbəşəri dəyərlərə əsaslanan səmərəli, məqsədyönlü fəaliyyəti qadınlarımız üçün mütərəqqi və müsbət nümunədir. Mehriban xanım Əliyeva, hər şeydən əvvəl, Azərbaycan qadınları üçün müasir dünyamızda bəşəriyyətə faydalı olmağın yeni meyarlarını müəyyən edən parlaq örnəkdir. Bu gün adı cəmiyyətimizdə xeyirxahlıq, insanlara kömək, nəciblik, alicənablıq məzmunu ilə assosiasiya olunan Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti xalqımızın və dövlətimizin mənafeyinə əsaslanır. Biz həmçinin həyatının əlamətdar günlərini, milli bayramlarımızı bir qayda olaraq valideyn himayəsindən məhrum qalmış və yaxud fiziki qüsurlu uşaqlarla keçirən Mehriban xanım Əliyevanın timsalında qəlbi məhəbbətlə dolu yünən qayğıkeş bir ana obrazını görürük.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan reallıqlarının dünyada təbliğinə xidmət edən çoxsaylı unikal və universal layihələr reallaşdırılır. Bu layihələr ümummilli məqsədlərə xidmət edir, müasir müstəqil və qüdrətli Azərbaycanın müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə müstəsna töhfələr verir. Yeni Mehriban xanım Əliyeva Azərbaycanı, xalqımızın zəngin tarixi köklərə söykənən ənənələrini, qonaqpərvərlik, humanizm, tərəqqipərvərlik, sülhsevərlik və digər ali - yüksək və nəcib keyfiyyətlərini bütün dünyaya təqdim edir, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, o cümlədən mədəniyyət və idman tədbirlərinə uğurla ev sahibliyi edib. Nüfuzlu "Eurovision-2012" beynəlxalq mahnı müsabiqəsi, 2015-ci ildə paytaxtımızda keçirilən ilk Avropa Oyunları və 2017-ci ildə paytaxt Bakıda keçirilən IV İslam Həmrəylik Oyunları zamanı Azərbaycan reallıqları dünyaya uğurla təqdim edildi. Ölkəmizin inkişafı, heyrətamiz, möhtəşəm nailiyyətləri qarşısında dünya "içini çəkdi". "İçini çəkmək" unikal və bənzərsiz reallıqların doğurduğu unikal bir hiss kimi heyrət və təəccübdən daha güclüdür. Bununla yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə gerçəkləşdirən layihələr ölkəmizin hüdudları ilə məhdudlaşmır, daha dəqiq desək, sərhəd tanımır, bir çox ölkələri, qitələri əhatə edir. Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Pakistanda, Gürcüstanda, Misirdə, Rusiyada bir neçə məktəbin yenidən qurulmasına, Vatikanda Müqəddəs Roma katakombalarının və Strasburq Kafedral kilsəsinin bərpasına dəstək nümayiş etdirməsi bunun əyani ifadəsi olan faktlardandır. Pakistanda qızlar üçün yeni məktəbin tikintisi, İslamabadda, eləcə də Pakistanın digər əyalətlərində, Bolqarıstanda silsilə xarakterli humanitar aksiyaların keçirilməsi də xüsusi qeyd edilməlidir. Versal sarayının bir hissəsinin, Luvr muzeyi qalereyasından birinin bərpası, Həştərxanda Azərbaycan-Rusiya dostluq körpüsünün tikilməsi, Müqəddəs Məleksima Knyaz Vladimirə Rusiyada ilk abidə ucaldılması və digər layihələr də Heydər Əliyev Fondunun yüksək zövqlə xeyriyyəçilik işlərini əks etdirən nümunələrdəndir. Tolerantlığın, multikulturalizm ənənələri və dəyərlərinin dünyaya çatdırılması, əslində, dünyanı əmin-amanlığa, barışa, firavanlığa dəvət etmək, xalqları bir-birinin dininə, dilinə, milli dəyərlərinə, ənənələrinə və mədəniyyətinə hörmətlə yanaşmağa çağırmaqdır, Azərbaycanın mütərəqqi simasını dünyaya təqdim etməkdir. Ali məramlara söykənən fəaliyyəti ilə Azərbaycan cəmiyyətində novator olan Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyətinin Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştiraka marağının artması, qadın fəallığı ənənələrinin güclənməsində rolu danılmazdır. Bu fədakar fəaliyyətin sahibi istər siyasətdə, istər cəmiyyətin taleyində oynadığı rola görə qeyri-adi şəxsiyyət olduğunu təsdiq etmiş olur.

Ardı Səh. 7

# Qadına, anaya münasibətin ən unikal nümunəsi məhz Azərbaycandır

Əvvəli-Səh-6

***- Nurlana xanım, rəhbərlik etdiyiniz YAP Qadınlar Şurasının cəmiyyət həyatının müxtəlif sahələrində qadın fəallığının artırılmasında rolu nədən ibarətdir?***

- Bu gün Azərbaycan dövlətinin rəhbəri möhtərəm İlham Əliyevin yürütdüyü daxili siyasət analara dayaq, gələcək haqqında ülvi arzularına dəstəkdir. Öz ölkəsinin siyasətindən məmnun yaşamaq - vətəndaş üçün bundan daha önəmli, daha vacib heç nə ola bilməz. Bu yaxınlarda minumum əməkhaqqının artırılması, əhalinin kredit borclarının bağışlanması, şəhid ailələrinə xeyli miqdarda birdəfəlik yardımın verilməsi bayramlar ərəfəsində yaşayan qadınlarımıza ən böyük töhfədir, köməkdir. Lakin bu siyasətin daha diqqətəsayan cəhəti həyatımızı ildən-ilə intibaha aparan tərəqqinin qəlbimizdə oyatdığı sarsılmaz inamdır. Ölkə vətəndaşlarının öz rəhbərinə, dövlətinə, onun siyasətinə güvənərək inamla yaşamaları sülhü, əmin-amanlığı qoruyan əsas amildir. Bu inam həm də partiyamızın dövlətimizin inkişafı istiqamətində həyata keçirdiyi işlərdə qadınlarımızın da fəal iştirakını təmin edir. Bu baxımdan, YAP Qadınlar Şurasının fəaliyyətini ayrıca vurğulamaq lazımdır. Qadınlar Şurasının yaradılması və fəaliyyəti ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasında qadınların roluna və təmsilçiliyinə verilən önəmdən qaynaqlanır. YAP Qadınlar Şurası dövlətçiliyə xidmət fəlsəfəsi və Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında öz fəaliyyətini davam etdirir. Bu gün YAP-ın sıralarında 730 mindən çox insan birləşib və bu, böyük bir ordudur. Bu ordunun sıralarında qadınlar təxminən 50 faiz təmsil olunurlar. YAP öz ideyalarını həyata keçirərkən qadınlara və gənclərə də istinad edir, onların fəaliyyətinə böyük önəm verir. Partiyamızın Qadınlar Şurasının İdarə Heyətinin üzvləri sırasında elm xadimləri, cəmiyyətin ən fəal insanları yer alır. Bundan başqa, təşkilatımızın sıralarında həkimlər, müəllimlər, digər peşə sahiblərindən olan ziyalılar təmsil olunurlar. Hər il çoxsaylı vətənpərvər və ziyalı qadınlarımız YAP-ın sıralarına daxil olurlar.

Bütövlükdə, YAP Qadınlar Şurası cəmiyyətdə qadın fəallığının artırılmasına öz töhfələrini məsuliyyət və məhəbbətlə təqdim edir, təşkilatımızın sıralarında birləşən qadınların səmərəli fəaliyyəti təşviq olunur. Partiyamızın Qadınlar Şurası müstəqil fəaliyyət göstərdiyi kimi, həm də müxtəlif dövlət qurumları, xüsusilə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə, gənclər təşkilatları ilə birlikdə mühüm layihələr və tədbirlər həyata keçirir. Diqqətə çatdırmaq istəyirəm ki, bir müddət öncə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Yeni Azərbaycan Partiyasının Qadınlar Şurası, "Təmiz ürək" İctimai Birliyi və Cəbrayıl Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Cocuq Mərcanlıda bayram tədbiri keçirildi. Cocuq Mərcanlıda gördüklərimiz - dövlətimiz tərəfindən Azərbaycan vətəndaşına yaradılan şərait, həyata keçirilən layihələr və cocuq mərcanlılıların öz doğma kəndlərində firavan həyatı vətənpərvərlik, fədakarlıq nümunəsi, ülvi arzulara yetmək yolunun başlanğıcı kimi bizdə böyük məmnunluq, mənəvi razılıq, dövlətimizin müdrik siyasətinə bir daha böyük məhəbbət yaratdı. Bu məhəbbət həm də Azərbaycan anasının öz övladlarını milli-mənəvi keyfiyyətlərə, vətənpərvərlik, xeyirxahlıq, humanizm, qədirbilənlik, sədaqət hisslərı ilə tərbiyə etməyə, elmli, bilikli, bacarıqlı, peşəkar vətəndaş kimi yetişdirməyə sövq edir. Onun XXI əsrin, modern cəmiyyətin ləyaqətli vətəndaşı olaraq yetişməsi üçün çiyinlərimizə vəzifələr qoyur.

Nəticə etibarilə, Azərbaycan qadını, Azərbaycan anası bu gün layiq olduğu dəyərə, hörmətə çataraq yüksək diqqət və qayğı ilə əhatə olunub. Hər bir dövlətin siqləti həm də qadına, anaya münasibətdə ölçülür. Qadına, anaya münasibətin ən unikal nümunəsi isə məhz Azərbaycandır.



# YAP qələbələr partiyasıdır

## *YAP Binəqədi rayon təşkitlatının yaradılmasının 26-cı ildönümü qeyd olunub*



Dünən Binəqədi rayon icra hakimiyyəti, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının yaradılmasının 26-cı ildönümü və 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov tədbir iştirakçılarını salamlayaraq, onları rayon təşkilatının yaradılmasının 26-cı ildönümü və 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib. R.Göyüşov YAP-ın Azərbaycanın ictimai-siyasi həyatında əvəzsiz rolundan danışaraq, partiyanın təkcə ölkəmizdə deyil, Qafqazda, hətta bütün dünyada yüksək nüfuza malik olduğunu bildirib. O, partiyanın sıralarının gündən-günə artmasının, sosial bazasının daha da möhkəmlənməsinin Ulu Öndər Heydər Əliyev ideyalarına etimadın və dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasətinə dəstəyin bariz nümunəsi olduğunu söyləyib. Tədbirdə çıxış edən "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev YAP-ın Azərbaycanın ictimai-siyasi həyatındakı əhəmiyyətli yerindən və rolundan danışıb. O, partiyanın yarandığı tarixə qısa ekskurs edərək, partiyanın çətin və mürəkkəb bir şəraitdə yarandığını diqqətə çatdırıb. Bildirib ki, YAP o zaman müxalifət partiyası kimi yaransa da, xalqına qarşı müxalifətdə olmayıb. YAP güclü və qüdrətli bir təşkilat kimi öz qüvvəsini ortaya qoydu. YAP-ın qələbələr partiyası olduğunu bildirən B.Quliyev bu gün partiyanın fəaliyyətində qadınlarımızın da böyük rolu olduğunu diqqətə çatdırıb: "Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan qadın siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Birmənalı şəkildə demək olar ki, Azərbaycanda gender bərabərliyi dövlət tərəfindən ciddi şəkildə təmin olunub. Müasir Azərbaycanda elə fəaliyyət sferası yoxdur ki, orada qadınlar təmsil olunmasın. Azərbaycan qadını bu gün idarəçilik, qanunvericilik, hüquq-mühafizə, ədliyyə orqanlarında təmsil olunur və məsul vəzifə daşıyır. Azərbaycan qadınları mübariz və ləyaqətlidirlər".

B.Quliyev gənclərin partiyadakı rolu da vurğulayaraq bildirib ki, Azərbaycan gənclərinə də dövlətimiz tərəfindən geniş imkanlar açılıb. Onlar potensiallarını ortaya qoyaraq, dövlətimizin qüdrətlənməsində öz töhfələrini verirlər. O, rayon təşkilatının ölkənin ictimai-siyasi həyatda aktivliyi ilə fərqləndiyini bildirərək, fəaliyyətində uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli tarixi yola nəzər salaraq, xalqa, vətənə, dövlətçiliyə xidmət edən partiyanın Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanaraq, dövlətçiliyimizin möhkəmlənməsinə və dinamik inkişafana töhfələrini verdiyini diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb və Azərbaycan regionun lider dövlətinə çevrilib. Natiq Yeni Azərbaycan Partiyasının yarandığı tarixi dövrdə Azərbaycan qadınının siyasi proseslərdə yaxından iştirak etdiyini bildirib.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova çıxışında tarixi müstəqil Azərbaycanın tarixi ilə üst-üstə düşən Yeni Azərbaycan Partiyasının ölkəmizin keçdiyi inkişaf yolunun bələdçisi və uğurların təminatçısı olduğunu bildirib. Natiq bu gün ölkə başçısı İlham Əliyev tərəfindən qadınlara böyük önəm verildiyindən söz açıb.

Tədbirdə çıxış edən Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə Azərbaycan qadınlarının ölkə tarixinin bütün dövrlərində xalqın taleyüklü məsələlərinin həll edilməsində öz töhfələrini vermələrindən söz açıb. O, fəaliyyəti ilə ölkənin siyasi mühitində fəallıq göstərən Azərbaycan xanımlarını təbrik edib.

Binəqədi rayon icra hakimiyyətinin başçısı Elxan Allahverdiyev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin Azərbaycan qadınlarının dünyada obrazı kimi çıxış etdiyini bildirib. E.Allahverdiyev bildirib ki, Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva ictimai, siyasi və mədəni sahələrdə çoxsaylı təşəbbüslərin müəllifi kimi çıxış edib. O, Azərbaycanın müstəqillik qazandığı ilk illərdə ölkəmizdə bütün sahələrdə tənəzzülün yaşandığı dövrdə yaranan Yeni Azərbaycan Partiyasının ölkənin inkişafında, dövlətin güclənməsində, xalqımızın firavanlığına qovuşmasında misilsiz xidmətlər göstərdiyini vurğulayıb. Natiq bildirib ki, bütün bunlar partiyanın qurucusu Ümummilli Lider Heydər Əliyevin uğurlu strategiyasının məntiqi nəticəsi idi. Bu gün bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində sürətlə inkişaf edən Azərbaycan mühüm nailiyyətlər qazanır. Çıxışlardan sonra rayonun ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə fərqlənən bir qrup qadın Fəxri Fərman və hədiyyələr ilə təltif olunub.

Tədbir bədii hissə ilə davam etdirilib.

***ZÜMRÜD BAYRAMOVA***

# Prezident İlham Əliyev bütün varlığı ilə xalqına xidmət edir!

## *Bu gerçəklik xalq və iqtidarın bir yerdən çıxış etməsinin bariz təcəssümüdür*

***Gəlin müqayisə aparaq ki, hansı dövlətin başçısı öz xalqına bu qədər yaxın və səmimi olub? Bu gün dünyanın istər aparıcı, istərsə də qeyri-aparıcı dövlətlərində baş verən çoxsaylı siyasi kataklizmlər, böhranlar, baş verən və artan narazılıqlar fonunda Azərbaycanda yürüdülən siyasət, əsrarəngiz model olaraq, təqdim olunmaqdadır. Yuxarıda verilən sualın cavabı olaraq, əslində, mövzuya hansı istiqamətdən başlamağın da çətinliyini çəkirəm...***



### İllərdən bəri yığılmış problemlər artıq ölkə başçısı İlham Əliyev tərəfindən həll olunmaqdadır - inqilabi islahatlar yolu ilə!

Əgər iqtisadi siyasət deyiriksə, burada Azərbaycanın dünyanın iqtisadi meydanında mühüm və möhkəm mövqe tutmasından, xarici siyasət deyiriksə, Azərbaycanın milli mənafeyinin qorunmasından başlayaraq, diplomatik zəfərlərinə qədər davam edən qələbələrindən, daxili siyasət deyiriksə, ölkəmizdə xalq-hakimiyyət birliyinin möhkəm dayaqlara söykənməsindən, sarsılmazlığından danışa bilərik. Digər sahələrdə də addımlar atılır və növbəti addımların atılması zərurəti yaranır ki, həmin addımların atılacağından kimsənin şübhəsi yoxdur. Çünki illərdən bəri yığılmış problemlər artıq ölkə başçısı İlham Əliyev tərəfindən həll olunmaqdadır - inqilabi islahatlar yolu ilə!

Məhz inqilabi islahatların nəticəsidir ki, ölkə mətbuatında, sosial şəbəkələrdə iki aydan çoxdur ki, qəbul edilən çoxsaylı Sərəncam və fərmanlar ətrafında müzakirələr aparılır, ölkə rəhbərinin atdığı addımlar xalqımızın böyük kəsimi tərəfindən, birmənalı olaraq alqışlanır və dəstəklənir. Bu, xalq və iqtidarın bir yerdə çıxış etməsinin bariz təcəssümüdür.

### Heç bir qüvvə bu sarsılmazlığı pozmaq gücündə, iqtidarında deyil və olmayacaq da!

Bu gün şəhid ailələrindən tutmuş, Qarabağ qazilərimizə qədər, Əfqanıstan müharibəsində iştirak edənlərdən, bu qanlı müharibədə canlarını vermiş vətən oğullarımızdan tutmuş, ali təhsil alan tələbələrimizə qədər, sosial yaşamları qənaətbəxş olmayan vətəndaşlarımızdan tutmuş, təqaüdçülərimizə, eləcə də, illərdir ki, bank problemləri yaşanan vətəndaşlarımıza qədər hər kəs öz dövlətinin, Prezidentinin yanındadır. Heç bir qüvvə bu sarsılmazlığı pozmaq gücündə, iqtidarında deyil və olmayacaq da!

Təkcə, Prezident İlham Əliyevin müxtəlif ölkədaxili səfərləri çərçivəsində xalqla təmsalarına diqqət yetirək. O, kəndlərə, rayonlara, şəhərlərə səfərləri zamanı dərhal xalqa yaxınlaşır, onların ayrı-ayrılıqda (!) problem və qayğıları ilə maraqlanır, göstərişlərini verir və nəticələr haqqında məlumatlandırılmasını tələb edir.

### İlham Əliyev şəhid atasına əlləri ilə su içirir, İlham Əliyev şəhid anasının qarşısında baş əyir, İlham Əliyev ana əlindən öpür, İlham Əliyev hər kəs üçün əlindən gələni əsirgəmir!

Əslində, dövlət başçımız bu siyasətini 16 ildir ki, davam etdirir, ancaq hazırkı məqamda həmin siyasət daha aşkar görünməkdədir. Yəni Prezident İlham Əliyev deyərkən, xalq yalnız dövlət başçısı deyil, həm də bir qayğıkeş şəxsiyyət, böyüklük rəmzi, ağsaqqala və ağbirçəyə sonsuz hörmət bəsləyən Vətən övladı görür. İlham Əliyev şəhid atasına əlləri ilə su içirir, İlham Əliyev şəhid anasının qarşısında baş əyir, İlham Əliyev ana əlindən öpür, İlham Əliyev hər kəs üçün dövlət başçısı kimi əlindən gələni əsirgəmir! Bu, gerçəklik aksiomdur və həmin aksiomu inkar etmək, ən azından, qeyri-insani hal kimi qiymətləndirilə bilər.

Hələ 2016-cı ilin aprel zəfəri zamanı Azərbaycan xalqı bir yumruq kimi birləşib, cəbhədə yağı düşmənə layiqli cavab verən və işğal altındakı torpaqlarımızın bir hissəsini azad edən Ordumuza möhtəşəm dəstəyini göstərdi. Bu dəstək Ali Baş Komandanımıza verilən dəstək idi və hər kəs veriləcək əmrə tabe olduğunu nümayiş etdirirdi. Bu dəstək xalqın dəstəyi idi ki, dağı belə yerindən oynadardı!

Həmin dəstək isə hər dəqiqə və hər an mövcuddur. Bu dəstək xalqın dövlətinə olan etibar və inamının sübutudur ki, Prezident İlham Əliyev xalqının ən kiçik problemini belə dövlət səviyyəsində həll edir. Varmı elə bir ölkə ki, Azərbaycanın dövlət başçısı kimi mötəbər addımlara getsin? Yoxdur! Hətta olarsa belə, HƏR BİR AZƏRBAYCANLININ PREZİDENTİ kimi heç vaxt ola bilməz. Çünki Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi varisi, davamçısı və Onun ideyalarının daşıyıcısı və reallaşdıranıdır. Ulu Öndərimiz deyirdi ki, O, qalan ömrünü Azərbaycan xalqına həsr edəcək və etdi. Bu gün isə, Cənab İlham Əliyev bütün varlığı ilə xalqına xidmət edir, "Mən xalqımın xidmətçisiyəm" deyir.

Xalq da zamanında Ona Ulu Öndər Heydər Əliyev tərəfindən əmanət edilən Vətən oğluna - İlham Heydər oğlu Əliyevə arxa və dayaqdır və belə də olacaq.

Qarşıda isə Azərbaycanı bütün sahələri əhatə edəcək daha böyük qələbə və zəfərlər gözləyir. Xüsusilə, Qarabağımızın işğaldan azad ediləcəyi gün hər saat, hər dəqiqə, hər irəliləyən saniyə yaxınlaşır. Azərbaycan dövlətinin, xalqının və Prezidentinin vəhdəti xalqımızın rifah halının daha da yaxşılaşdırılması, daha böyük sevincli günlərimizin yaşanması müjdələrini verir!

***Rövşən RƏSULOV***

***P.S.*** *Bu danılmaz həqiqətləri isə, xarici ölkələrdə var-gəl edib, dövlət maraqlarını satanlar və onlara burada züy tutanlar qulaqlarından sırğa edib assınlar. Zatən, kişilik, qeyrət mücəssəməsindən uzaq olan Vətən xainlərinə elə sırğa taxmaq yaraşır...*

# UNEC-də Rusiya səfiri ilə görüş olub

***Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Nikolayeviç Boçarnikov Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) olub. SİA-nın verdiyi məlumata görə, UNEC-in rektoru, professor Ədalət Muradovla görüşdə səfirə universitet barədə ətraflı məlumat verilib.***



Bildirilib ki, UNEC regionun 4 dildə ali təhsil verən və Rusiya Federasiyasında filialı olan yeganə universitetidir. UNEC-də rus dilində tədrisə böyük önəm verildiyini diqqətə çatdıran rektor Rus İqtisad Məktəbinin (RİM) fəaliyyətindən söz açıb, fakültədə 9 ixtisas üzrə iqtisadyönümlü tədris həyata keçirildiyini qeyd edib. UNEC-in Avropanın nüfuzlu universitetləri ilə magistratura və bakalavr pilləsi üzrə ikili diplom proqramlarından və əməkdaşlıq münasibətlərindən söz açan Ə.Muradov, Rusiyanın ali təhsil müəssisələri ilə də bu istiqamətdə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirib. UNEC-in Moskva Dövlət Humanitar İqtisad Universiteti (MDHİU) arasında inklüziv ali təhsildə bakalavr pilləsi üzrə ikili diplom razılaşması əldə edildiyini, Plexanov adına Rusiya İqtisad Universiteti və "Ali İqtisad Məktəbi" Milli Tədqiqat Universiteti ilə əməkdaşlıq proqramlarının həyata keçirildiyini vurğulayıb.

M.Boçarnikov Azərbaycanda rus dilinə olan marağı hər iki ölkənin dostluq münasibətlərinin bariz nümunəsi kimi qiymətləndirib. Azərbaycanda rusdilli təhsilin davam etdirilməsi məqsədi ilə hər iki ölkənin ali təhsil müəssisələri arasında əməkdaşlığın qurulmasına və genişləndirilməsinə dəstək göstərəcəyini deyib.

Görüşdə Rusiyanın ali təhsil müəssisələri ilə birgə elmi jurnalların dərc olunması, yay məktəbinin təşkili, müəllim-tələbə mübadiləsinin reallaşdırılması istiqamətində fikir mübadiləsi aparılıb.

Sonra rusiyalı diplomat Rus İqtisad Məktəbinin professor-müəllim heyəti və tələbələri ilə görüşüb. UNEC-də RİM-nin yaradılmasını mühüm hadisə adlandıran səfir, fakültənin məzunlarının öz bilik və bacarıqları ilə Rusiya və Azərbaycanın iqtisadi əlaqələrinin inkişafına böyük töhfələr verəcəyinə əminliyini ifadə edib.

Səfir müəllim və tələbələrin Rusiya universitetləri ilə əməkdaşlıq məsələləri, birgə elmi tədqiqatların aparılması, Xəzəryanı dövlətlərlə beyin mərkəzlərinin yaradılması, o cümlədən Rusiya-Azərbaycan münasibətləri, iqtisadi əlaqələrin inkişafı və digər məsələlərlə bağlı suallarını cavablandırıb. Hər iki dövlət arasındakı münasibətlərin qonşuluq əlaqələrindən strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəldiyinə diqqət çəkən diplomat, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər bütün istiqamətlərdə uğurla inkişaf etdiyini bildirib. M.Boçarnikov Rusiya ilə elm və təhsil sahəsində əməkdaşlığın qurulması istiqamətində təkliflərin hazırlanaraq səfirliyə təqdim edilməsini tövsiyə edib.

# Minimum əməkhaqqı yaşayış minimumu həddində

***Ölkədə vətəndaş amilinə diqqətin günü-gündən artdığı təkzibedilməzdir. Bu yürüdülən sosial siyasətin qayəsini təşkil edir. Minimum əməkhaqqının 38,5 faiz artırılaraq, 180 manata çatdırılması heç də sıradan bir hadisə hesab oluna bilməz və bu barədə ölkə başçısı İlham Əliyevin Sərəncamı böyük əhəmiyyət kəsb edir.***

"Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" ölkə başçısının 8 fevral 2019-cu il tarixli Sərəncamına əsasən, bu ayın, yəni martın birindən minimum əməkhaqqının səviyyəsi 38,4% artırılıb. Bu isə, o deməkdir ki, minimun əmək haqqının məbləği 180 manata çatdırılıb. Xüsusilə, qeyd etmək lazımdır ki, bu artımdan sonra ölkədə, ilk dəfə olaraq, minimum əməkhaqqı məbləği yaşayış minimumu səviyyəsilə bərabərləşib.

Minimum əməkhaqqının artımı 600 min insanı əhatə edir ki, bu, heç də kiçik rəqəm deyil. Sərəncama əsasən, dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30, özəl sektorda isə 150 min nəfərin əməkhaqqında 25% artım olacaq. Artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 400 milyon manat vəsait tələb olunur. Təkcə 2019-cu ilin 10 ayı üçün 335 milyon manat əlavə vəsait ayrılıb. Sözügedən Sərəncam da, bundan əvvəlki sərəncamlar kimi, məhz ölkə vətəndaşlarının yaşayış şəraitinin daha da yaxşılaşdırılmasına xidmət edir. Göründüyü kimi, Azərbaycan hökuməti vətəndaşların əmək haqlarının artmasına, minimum yaşayış şəraitinin tənzimlənməsinə, sosial durumun yaxşılaşmasına, mütəmadi olaraq, töhfələr verməkdədir.

Məsələnin ən vacib tərəfi, onun mahiyyəti, eyni zamanda, ondan ibarətdir ki, minimum aylıq əməkhaqqı işçinin əməyinə görə, ödənilən ən aşağı maaş həddidir. Bu isə, o deməkdir ki, işçilərin əməkhaqqı məbləğinin hər hansı şəkildə azaldılması və onlara dövlətin müəyyən etdiyi minimum əməkhaqqı miqdarından az əməkhaqqı verilməsi qanunla qadağandır. İnkişaf etmiş ölkələrdə də gündəlik və saatlıq əməkhaqqı ödənişi üzrə minimal hədd sistemi mövcuddur. Minimum aylıq əməkhaqqı həddinin və siyasətinin tətbiqi maaşların ən aşağı səviyyəsini və son aşağı həddini müəyyənləşdirir. Bu isə, öz növbəsində, həyat şəraitini yüksəltmək yollarını, perspektivlərini təyin etmək, yoxsulluq səviyyəsini azaltmaqla yanaşı, biznesin effektli olması istiqamətində çox böyük stimul yaratmaq imkanlarını da genişləndirir.




### Əhalinin maddi durumunun yaxşılaşdırılması istiqamətində görülən işlərin ardıcıllığı bunun bir tendensiya və sosial siyasət ənənəsi olduğunu təsdiq edir

Son 15 ildə Azərbaycanda əmək haqları 7 dəfə, minimum əmək haqları isə 6,5 dəfə artırılıb və bu göstəricilər çox uğurlu sosial siyasət aparıldığını təsdiqləyir. Təsdiq edir ki, ölkə vətəndaşlarının əmək hüquqlarının qorunması, işçilərin maddi-sosial tələbatlarının ödənilməsi, layiqli həyat səviyyələrinin təmin edilməsi, başda Prezident İlham Əliyev olmaqla, Azərbaycan hökumətinin diqqət mərkəzindədir. Bu, eyni zamanda, dövlətimizin vətəndaşlara olan qayğısının bariz nümunəsi və əməli təzahürüdür.

Nəzərə almaq lazımdır ki, minimum əmək haqqının artırılması yalnız ölkə başçısının, Prezidentin Sərəncamı ilə həyata keçirilir. Bu isə, o deməkdir ki, bütün ölkə üzrə, yəni iqtisadiyyatın bütün sektorları, bütün sahələri üzrə əməkhaqqı ödənişlərini artırmaq mümkün olur və elə üstünlük də, məhz bundan ibarətdir. Yəni bu Sərəncam və nəticədə də artım tək bir qrupa deyil, bütün vətəndaşlara şamil olunur.

Əgər Prezident konkret bir sahədə və ya sektorda maaşların artımı ilə bağlı Sərəncam imzalasaydı, bu, yalnız həmin sferanı əhatə edərdi. Amma bu Sərəncamın üstünlüyü ondan ibarətdir ki, bu Sərəncamla artım hamıya şamil olunur və bütün vətəndaşların yaşayış şəraitini yüksəldir. Təbii ki, onun yaşayış minimumu ilə bərabər səviyyəyə çatdırılması da, öz növbəsində, daha böyük əhəmiyyət kəsb edir.

Hazırda minimum əməkhaqqı yaşayış minimumu həddindədir. Lakin dövlətin sosial siyasət prioritetlərinə nəzər saldıqda, aydın olur ki, bu, hələ son deyil. Vətəndaşların sosial təminatları istiqamətində bir-birinin ardınca atılan addımlar, əhalinin maddi durumunun yaxşılaşdırılması yönündə görülən işlərin ardıcıllığı bunun bir tendensiya, sosial siyasət ənənəsi olduğunu təsdiq edir. Deməli, yaxın gələcəkdə ölkədə ən aşağı maaş səviyyəsinin yaşayış minimumu həddindən yuxarı olacağı günün reallığıdır və bu gün çox uzaqda deyil.

***İnam HACIYEV***

# Həftəlik qəzetlərin mətbəə xərcləri KİVDF tərəfindən ödəniləcək

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. KİVDF-dən SİA-ya verilən məlumata görə, Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açıq elan edərək bildirib ki, gündəliyə əsasən iclasda bir məsələnin - Fondun 2019-cu ilin II rübü üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi müsabiqənin şərtlərinə yeni əlavələrin edilməsi məsələsinin müzakirəsi nəzərdə tutulur.***



Müzakirəyə çıxarılan məsələ barədə geniş məlumat verən icraçı direktor Vüqar Səfərli bildirib ki, çap mediasının müasir dövrün tələblərinə uyğun olaraq müasirləşdirilməsi, cəmiyyətdəki nüfuz və mövqelərinin möhkəmləndirilməsi məqsədilə Fondun 31 yanvar 2019-cu il tarixli iclasında qəzetlərin tirajı və yayımı ilə bağlı şərtlərdə dəyişikliklər edilib. V.Səfərli qeyd edib ki, fevral ayından etibarən qüvvədə olan həmin dəyişikliklərə əsasən, 2019-cu ilin II rübü üzrə Fondun KİV-ə maliyyə yardımı müsabiqəsində son 3 ildə müntəzəm gündəlik nəşr olunan, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3 formatda), tirajı 5000 nüsxədən az olmayan, hər buraxılışından ən azı 2000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan ictimai-siyasi qəzetlər iştirak edə bilərlər. V.Səfərli xarici dillərdə nəşr olunan gündəlik və həftəlik ictimai-siyasi qəzetlər üçün tirajın minimum 3000, satış və abunənin isə minimum 1500 nüsxə müəyyənləşdirildiyini xatırladıb.

İcraçı direktor bildirib ki, fevral ayının yekunları ilə bağlı Fonda təqdim olunan hesabatlar 2019-cu ilin I rübündə layihələri maliyyələşdirilən xeyli sayda qəzetin tiraj və yayımla bağlı yeni şərtləri yerinə yetirmək imkanında olmadığını göstərib. Vüqar Səfərli bununla əlaqədar 2019-cu ilin II rübü üzrə KİV-ə maliyyə yardımı müsabiqəsinin elanının şərtlərinə yeni əlavənin edilməsi təklifinin müzakirəsinə obyektiv zərurətin yarandığını qeyd edib. İcraçı direktor bildirib ki, həmin əlavəyə əsasən, son üç ildə müntəzəm nəşr olunan, müsabiqə elan olunan günədək Fondun maliyyələşmə şərtlərini yerinə yetirən, səhifələrinin sayı 24-dən (A3 formatda), tirajı 5000 nüsxədən az olmayan, hər buraxılışından ən azı 2000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan həftəlik, o cümlədən mövcud şərtlərlə fəaliyyətini davam etdirə bilmədiyinə görə həftəlik nəşr olunacaq gündəlik ictimai-siyasi qəzetlərə də müəyyən tələblər çərçivəsində maliyyə yardımının ayrılması təklif olunur. İcraçı direktor həmçinin vurğulayıb ki, 2019-cu il aprelin 1-dən bu formatda çıxan qəzetlərin yalnız mətbəə xərcləri (kağız və çap xərcləri) Fond tərəfindən ödəniləcək. Aprel-may ayının yekun hesabatına əsasən qeyd olunan şərtlərə əməl etməyən qəzetlərin mətbəə xərclərinin ödənişi dayandırılacaq.

Sonra Müşahidə Şurasının üzvləri müsabiqə elanına təklif olunan əlavə ilə bağlı fikirlərini bildiriblər. Müşahidə Şurasının sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Bəhruz Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov və Rasim Həsənov təklif olunan əlavəni Fondun yayım və tirajla bağlı müəyyənləşdirdiyi yeni tələbləri yerinə yetirmək imkanında olmayan gündəlik və həftəlik qəzetlərə növbəti şans və humanist yanaşma kimi dəyərləndirərək, bu addımın həmin nəşrlərdə çalışan KİV əməkdaşlarının da mənafeyinə uyğun olduğunu, obyektiv reallığı əks etdirdiyini bildiriblər. Sonda təklif səsə qoyularaq yekdilliklə qəbul edilib.

# Nikol Paşinyan “iki daş” arasında

## *Erməni baş nazirinin xarici səfərləri fiaskoya uğurayır*



***Bəlkə də Nikol Paşinyan işğalçı ölkəyə baş nazir olmağına heyifslənir. O, elə zənn edirdi ki, xarici ölkələrə səfərlər etməklə, bəlkə nəyəsə nail ola bilər. Ancaq erməni baş nazirin “dəvəquşu siyasəti”, daha doğrusu, xaricə sülənqəc səfərlər etməklə avropalıların “saqqızını” oğurlaya bilmədi. Ancaq Nikol yenə Avropaya pul üçün yalvardı...***

Belə ki, Tehran səfəri fiaskoya uğrayan və İranla ciddi heç bir anlaşmaya nail olmayan Nikol Paşinyan bəlkə bu dəfə baş tutdu ümidi ilə Brüsselə səfər etməklə, Avropaya anormal nağıllarını danışmaqla pul qoparacağını düşündü.

Amma gələn xəbərlərdən hasil olan qənaət belədir ki, Nikol Paşinyan Avropadan yenə “əli ətəyindən uzun” qayıdacaq. Ona nə Qarabağ məsələsində gözlədiyi siyasi dəstək veriləcək, nə də avropalılardan umduğu maliyyə-pul. Səbəb təkdir: Paşinyan “iki stulda oturmaq” siyasəti aparır, istəyir ki, o, bir əlindən Rusiyanı, o birindən Qərbi tutsun, biri silah, hərbi-təhlükəsizlik dəstəyi versin, Qərb isə maliyyə və siyasi kömək göstərsin.

İran mətbuatının məlumatına görə, Ermənistanın baş naziri Nikol Paşinyanın “Ararat” idman kompleksində Dağlıq Qarabağ münaqişəsinə dair erməni dilində bir neçə plakatın asılması özbaşına atılmış addımdır və qəbuledilməzdir. İranın Azərbaycandakı səfirliyi də Ermənistanın baş naziri Nikol Paşinyanın İrana səfəri zamanı Tehranda yaşayan bir qrup erməninin “Ararat” klubunda baş tutan görüşdə asdıqları plakatı və səsləndirilən şüarları özbaşına atılan addım, kimi qiymətləndirib və bunu pisləyib. Qeyd olunub ki, İran İslam Respublikası Azərbaycan Respublikasının müstəqillik qazandığı ilk və çətin günlərində həmişə Azərbaycan dövləti və millətinin yanında olmuş, Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləmiş və bu siyasətini dəyişməyəcək: “Düşünürük ki, Qarabağ münaqişəsi Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörmət prinsipi əsasında və sülh danışıqları yolu ilə iki tərəf arasında həllini tapacaq. İran İslam Respublikasının Azərbaycan Respublikası ilə dostluğu və qardaşlığı əbədidir və heç bir təxribat iki xalqın iradəsinə xələl yetirə bilməz”. Beləliklə, hadisələrin gedişi bir daha göstərir ki, Ermənistanın baş naziri Nikol Pşainyanın İrana iki günlük səfəri, gözləndildiyi kimi, İrəvanın umduğu nəticələri vermədi. Səfər zamanı tərəflər arasında strateji əhəmiyyətli heç bir sənəd imzalanmadı. Ermənilərin İran qazı üçün tranzit ölkəyə, nəqliyyat dəhlizinə çevrilməklə bağlı hansısa ortaq layihələrə ümidləri yenə ürəyində qaldı. Səfər zamanı yalnız niyyət memorandumu - niyyət anlaşması imzalandı. Yəni İran rəhbərliyi, faktiki olaraq, işğalçı ölkənin rəhbərini yola verdi.

Bu ölkənin liderinin həyasızcasına növbəti sayıqlaması bir daha Paşinyanı gülünc və çətin duruma salıb. Belə ki, Tehranda, erməni icması ilə görüşü zamanı Paşinyan öz aləmində Azərbaycanı hədələyərək, populistcəsinə bildirib ki, “əgər kimsə Qarabağ məsələsini hədələrlə həll etməyi düşünürsə, o, dərindən yanılır, nədən ki, o halda o, bütün dünya ermənilərinə qarşı durmalı olacaq”.

Elə Paşinyan kimi “küçə demokratın”dan bu səviyyəli düşüncə təəccüb doğurmur. Çünki əhalisi ac-yalavac kökdə, özü blokada şəraitində olan, ordusuna düzəməlli çağırışçı tapmayan və silahlanma məsələsində Azərbaycanla ayaqlaşma imkanından, paritet yaratmaq şansından məhrum “cırtdan” ölkənin böyük müharibədən necə çıxacağı çox maraqlıdır. Ermənilərin yeganə müqavimət üsulu kimi yaxşı bacardığı terror üsulu ağla gəlir. Paşinyan da, əslində, elə Azərbaycanı terrorla hədələyib.

Ötən dövr çox aydın şəkildə göstərir ki, Azərbaycanla normal münasibətlər yaratmadan, Ermənistanın bir dövlət olaraq, mövcudluğunu davam etdirməsi mümkün deyil.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlar ölkəmizin beynəlxalq miqyasda da mövqeyini əhəmiyyətli dərəcədə gücləndirən faktorlardan biri kimi çıxış edir: “Bütün bunlara paralel olaraq, uğurlu xarici siyasət Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini ölkəmizə yönəldib. Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb. Onların qəhrəmanları, onların generalları oğrulardır, onların ordusu oğru ordusudur. Bunu indi Ermənistan xalqı görür və Ermənistan hakimiyyəti deyir”.

Dövlət başçısı onu da bildirib ki, haqq-ədalət öz yerini tapıb və 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejim tam biabır olaraq, siyasi səhnədən qovulub: “Deyə bilərəm ki, bu rejimin çökməsində bizim də rolumuz olub, onu mən şişirtmək istəmirəm, bunu biz, necə deyərlər, öz adımıza çıxmaq istəmirik. Ancaq o da həqiqətdir ki, bizim apardığımız siyasət nəticəsində, Ermənistan onlara gəlir gətirə biləcək bütün layihələrdən məhrum edildi. Biz onlara qarşı təcrid siyasətimizi uğurla aparmışıq və heç kimdən çəkinmədən mən bu barədə dəfələrlə Azərbaycan ictimaiyyətinə və xarici tərəfdaşlarıma demişəm. Nə qədər ki, torpaqlarımız işğal altındadır, biz Ermənistana qarşı təcrid siyasətimizi aparacağıq. Bu siyasət nəticəsində, Ermənistan iqtisadi iflasa uğradı. Ermənistanın iqtisadi perspektivləri, demək olar ki, yoxdur”.

Beləliklə, istər hərbi, istərsə də diplomatik müstəvidə proseslərin Ermənistanın lehinə olmadığını göstərir. Bu vəziyyətdə, Qarabağ məsələsində güzəştə gedib lazımi addımlar atmayacağı halda, Ermənistanı sarsıdıcı zərbələr gözləyir.

**A.SƏMƏDOVA**

## “Paşinyanın komandası mətbuatın üzərinə hərtərəfli hücuma keçib”



“Ermənistanda mətbuat təzyiqlər altındadır, fəaliyyətinə ciddi maneçilik var. Bəzi mətbu orqanları bağlanmaq üzrədir. Səbəb N.Paşinyan komandasının hərtərəfli şəkildə mətbuatın üzərinə hücuma keçməsidir. Yerevan şəhər meriyası bəzi mətbu orqanlarına müraciət göndərərək onları yerləşdikləri binadan çıxmağa çağırdı. Bu Ermənistanın daxilində ciddi ajiotaj yaratdı. Ombudsman reaksiya verdi”. Bunu SİA-ya açıqlamasında politoloq Mübariz Əhmədoğlu deyib.

Politoloqun sözlərinə görə, əksər ekspertlər Paşinyanın mətbuatı ağ-qaraya bürüdüyünü yazsalar da heç bir ciddi dəyişiklik yaranmadı: “Mətbuata təzyiqin kökü isə N.Paşinyanın qaynı, Anna Akopyanın qardaşı, deputat Qraçya Akopyanın təşəbbüsündən başlandı. Deputat Q. Akopyan parlamentdə irəli sürdüyü qanun layihəsinə görə bukmeyker kompaniyalarına televiziya, internet və digər mətbuata reklam vermək qadağan edilir. İş o yerə gəlib çatıb ki, hətta Paşinyanın blokundan olan deputatlar Avropa Şurasında Ermənistan mətbuatının dezinformasiya ilə məşğul olması barədə məlumat yaydılar və AŞPA-dan bu istiqamətdə kömək istədilər. Edmon Marukyan, keçmiş nazir indiki deputat T.Mandilyan Paşinyan hökumətini tənqidə dözümsüz olduğunu bildirdilər. Daşnaksutyun partiyası Ermənistan hakimiyyətinin tənqidlərə hədsiz kəskin reaksiya verdiyini bildirdi.

Daşnaklara məxsus “Yerkir media” hər gün işçilərini ixtisar etməli olur. İri mətbuat holdinqi olan PanArmenian Media Group öz fəaliyyətini dayandırdı. “Orinats Yerkir” partiyasının sədri A.Baqdasaryana məxsus ABC televiziyası da satışa çıxarıldı.

Mətbuatın parlament binasına girişi bəzən qadağan olunur. Parlamentdə N.Paşinyana məxsus blok və onun “Vətəndaş müqaviləsi” partiyası tez-tez qapalı iclas keçirməli olur. Bu qapalı iclaslar keçirmək praktikası tənqid olunduğu üçün mətbuat parlamentdəki iclaslara buraxılmır”.

## “Paşinyanın beynəlxalq ictimaiyyətə yanlış məlumatlar ötürür”



“Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində sülhyaratma prosesləri dalana dirənib. Ermənistan tərəfi açıq şəkildə həm dünya ictimai rəyə, həm də beynəlxalq təşkilatların mövqeyinə önəm vermir. Sözün əsil mənasında qeyri-ciddi insan təsiri bağışlayan, siyasətdə kifayət qədər təcrübəsi olmayan Paşinyanın sərsəm bəyanatları da sülhyaratma prosesinə mane olur”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Paşinyanın separatçı rejimin danışıqlar prosesində iştirakına cəhd etdiyini deyən politoloq söyləyib ki, lakin o bilməlidir ki, münaqişənin həlli Azərbaycan və Ermənistan arasında aparılır: “Artıq 25 ildir ki bu format davam edir. Paşinyanın separatçı rejimlə bağlı məsələni ortaya atması, həm zaman qazanmaq, danışıqlar prosesini dalan dirəmək xarakteri daşıyır. Bundan başqa, beynəlxalq ictimaiyyətə yanlış məlumatlar ötürülür. Misal üçün Belçikanın paytaxtı Brüsseldə olan Paşinyan çox ziddiyyətli fikirlər səsləndirərək hətta Azərbaycanın sülhə hazır olmadığını bildirir. Bu, həyasızlığın yüksək pilləsi, eyni zamanda işğalçı dövlətin qarşısına ciddi səd çəkilməməsinin nəticəsidir. Təəssüf ki, Avropa dövlətləri bu anormal insanı dayandırmaq istəmir, əksinə ona infrastruktur tədbirləri üçün kredit verməyi planlaşdırırlar”.

Q.Hüseynli qeyd edib ki, son proseslər göstərir ki, Dağlıq Qarabağ münaqişəsi sülh yaratma prosesində özünün çətin dövrünü yaşayır: “Bu çətin dövrü dəf etmək üçün beynəlxalq təşkilatlar Ermənistanı sülh danışıqlarına məcbur etməlidirlər. Paşinyanın daxili auditoriyaya hesablanan bəyanatlar səsləndirməsi həqiqətdir və o, kütlənin istəyi ilə hərəkət edir. Lakin əsas məsələ odur ki, dünya əvvəlki kimi ikili standartlarla çıxış etmir, Dağlıq Qarabağ münaqişəsinə fərqli yanaşma meydana gəlib. Əksər dövlətlər, beynəlxalq qurumlar münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini istəyirlər. Lakin Paşinyan və onun ətrafındakılar bunu görməzdən gəlirlər”. Politoloq əlavə edib ki, BMT, ATƏT və digər beynəlxalq təşkilatlar Ermənistana təzyiq göstərməli, onları sülh məcbur etmək üçün müəyyən sanksiya tətbiq etməlidirlər.




# Suraxanı rayonu ötən ili uğurla başa vurub



Suraxanı rayonunda 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib. Rayon icra hakimiyyəti başçısı yanında şuranın üzvləri, Milli Məclisin deputatları, rayon ziyalıları və ictimaiyyətin nümayəndələri əvvəlcə Neftçilər Parkında həmişəyaşıl ağaclar əkib, sonra isə Ümummilli Liderin Heydər Əliyev Parkında ucaldılan abidəsini ziyarət ediblər. Hesabat yığıncağının iştirakçıları ötən ilin iqtisadi göstəricilərini əks etdirən stendlərə baxıb, rayonun sənaye müəssisələrinin istehsal etdiyi məhsullarla tanış olublar. Sonra rayonda aparılmış abadlıq-quruculuq işləri haqqında film nümayiş olunub.

Hesabat məruzəsi ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov bildirib ki, hesabat dövrü ərzində Suraxanı rayonunun hərtərəfli sosial-iqtisadi inkişafına nail olunub: "Hesabağ dövründə sənaye məhsulunun istehsalı 450,4 milyon manat, tikinti-quraşdırma işləri 122,5 milyon manat, nəqliyyat xidmətləri 11,0 milyon manat, pərakəndə ticarət dövriyyəsi 1175,2 milyon manat olub, orta aylıq əmək haqqı 578 manat təşkil edib. Əhaliyə 240,6 milyon manat məbləğində ödənişli xidmətlər göstərilib, rayona 118,7 milyon manat investisiya cəlb edilib, 3997 yeni iş yeri açılıb".

Rayon icra hakimiyyətinin başçısı qeyd edib ki, hesabat dövründə yaşıllaşdırma və ətraf mühitin sağlamlaşdırılması tədbirləri davam etdirilmiş, 13 ümumrayon iməciliyində 6713 ədəd ağac əkilmişdir: "Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü və Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsinə uyğun olaraq, Hövsan qəsəbəsi, Elman Qasımov küçəsi 15, 15A, 15B, 15V saylı ünvanlarda 540 ailənin - 1942 nəfər sakinin yaşadığı məhəllə abadlaşdırılaraq, 27 dekabr 2018-ci il tarixdə sakinlərin istifadəsinə verilmişdir".

Yığıncaqda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçisi Tağı Tağıyev, Milli Məclisin deputatı Ağacan Abiyev, Sevinc Fətəliyeva, Fərəc Quliyev və başqaları çıxış ediblər. Yekunda İ.Abbasov xüsusi vurğulayıb ki, bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, inamlı və stabil inkişafı ölkəmizin Prezidenti ilə birbaşa bağlıdır: "Möhtərəm Prezidentimiz İlham Əliyev öz iradəsi, insanlara doğru yolu göstərmək bacarığı ilə xalqı vahid məqsəd uğrunda səfərbər edən və arxasınca aparan əvəzolunmaz Liderdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi və iqtisadi kursuna sadiq olan rayonun əmək kollektivləri və sakinləri qazanılmış uğurların daha da artırılması üçün əzmlə çalışacaqlar".

Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə yığıncaq iştirakçıları adından müraciət qəbul olunub, rayonun sosial-iqtisadi inkişafında, abadlıq-quruculuq işlərində, ictimai həyatında fəal iştirak edən bir qrup şəxs rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edilib.

**Zümrüd BAYRAMOVA**

# YAP Samux rayon təşkilatının şura üzvlərinin təbliğat yığıncağı keçirib

## *"Problemli kreditlərin həlli ilə bağlı dünyada analoqu olmayan qərar verən Prezident İlham Əliyev sosial inqilab nümunəsi təqdim etmiş oldu"*



***Yeni Azərbaycan Partiyasının Samux rayon təşkilatının şura üzvlərinin iştirakı ilə Qarayeri qəsəbəsində təbliğat yığıncağı keçirilib. Yığıncaqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vətəndaşlarımızın sosial-rifah halının yüksəldilməsi üçün atdığı addımlar, verdiyi qərarlar müzakirə olunub. Yığıncaqda YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov çıxış edərək, vurğulayıb ki, Prezident İlham Əliyevin 2019-cu ilin iki ayında imzaladığı fərman və sərəncamlarına diqqət yetirsək, insan amilinə verilən dəyər, ən əsası, onların sosial müdafiəsinin gücləndirilməsinin prioritetliyi daha aydın şəkildə özünü təsdiqləyəcək.***

G.Bayramov bildirib ki, ölkə Prezidenti İlham Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Sərəncamı", "Şəhid və itkin ailələri barədə verdiyi Fərman", "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Fərman", "Minimum əmək haqqının artırılması haqqında Sərəncam" da atılan davamlı addımların tərkib hissəsidir. Sərəncam, ümumilikdə, 600 minə yaxın vətəndaşa yönələn sosial müavinətlərin və Prezidentin, aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, eləcə də, həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədinə xidmət edir.

"Məhz bu kontekstdə Prezident İlham Əliyevin verdiyi qərarlar bütün dünya üçün nümunədir", deyə qeyd edən partiyanın rayon təşkilatının sədri, həmçinin, bildirib ki, məhz 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilməsi, şəhid ailələrinə müavinətin 242 manatdan 300 manata artırılması, minimum əmək haqqının 38 faiz artırılması, 130 manatdan 180 manata çatdırılması, həmçinin, minimum pensiyaların məbləğinin də təxminən 38 faiz artirilması, eləcə də, 100 minə yaxın tələbənin təqaüdünün qaldırılması Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətrin mərkəzində insan amilinin olduğunun bir daha sübut edir.

Tədbirdə şura üzvü Şəmistan Yusifov da çıxış edərək, bildirib ki, ölkəmizdə aparılan islahatlar, imzalanan fərman və sərəncamlar bir daha sübut edir ki, insan amili, onun rifahı, məşğulluğun təmin olunması, yoxsulluğun və işsizliyin aradan qaldırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin prioritetlərindən biridir.

Tədbirdə şura üzvü Mirzəmməd Orucov da çıxış edərək qeyd edib ki, Azərbaycan vətəndaşlarının böyük sevincinə səbəb olmuş daha bir hadisə də problemli kreditlərlə bağlı verilən Fərman oldu. "Ekspertlərin fikrincə, problemli kreditlərin həlli ilə bağlı dünyada analoqu olmayan qərar verən Prezident İlham Əliyev sosial inqilab nümunəsi təqdim etmiş oldu.

Yığıncaqda partiya fəalları da çıxış edərək, diqqətə çatdırıblar ki, 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, o cümlədən də, problemli kreditlərin həlli öz miqyasına, əhatə dairəsinə görə, sözün əsl mənasında, inqilabi qərarlardır.

**Rövşən NURƏDDİNOĞLU**

# Laçınlılar Prezident İlham Əliyevin inqilabi islahatlarını dəstəkləyir



Dünən YAP Laçın rayon təşkilatında dövlət başçısı İlham Əliyevin inqilabi sosial islahatları ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Laçın rayonu icra hakimiyyətinin başçısının müavini, Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatının sədri İlqar İlyasov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan çoxşaxəli islahatlardan və genişmiqyaslı quruculuq işlərindən bəhs edib. Bildirib ki, güclü və ciddi iqtisadi islahatlar düşünülmüş sosial siyasətlə irəliləyən Azərbaycan son 15 ildə sürətli inkişafı sosial sahədə irimiqyaslı islahatlar aparmağa imkan yaradıb. İ.İlyasov, onu da vurğulayıb ki, Prezident İlham Əliyev daima sosial problemlərin həllini diqqət mərkəzində saxladığına görə yaranmış imkanların ilk növbədə, məhz sosial sahəyə yönəldilməsini təmin etdi: "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və onlara dövlət qayğısının artırılması məqsədi ilə 2019-cu il 26 fevral tarixli Sərəncamı ilə məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləğinin 50 faiz artırılması məcburi köçkünlərə yüksək səviyyədə olan dövlət qayğısının bariz nümunəsidir".

Tədbirdə rayon maliyyə şöbəsinin, Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsinin rəhbərləri çıxış edərək, Prezidentin fərman və sərəncamlarının əhalinin bütün zümrələri, xüsusən, aztəminatlı ailələr üçün əhəmiyyətindən danışıblar. Çıxışlarda Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində görülən işləri, diplomatiya sahəsindəki uğurları qeyd edilərək, erməni işğalında olan torpaqlarımızın da tezliklə azad ediləcəyinə əminlik vurğulanıbdır. Daha sonra tədbirdə çıxış edən rayon ziyalıları məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləğinin, o cümlədən, əmək haqlarının artırılmasına, onlara göstərilən diqqət və qayğıya görə, Prezident İlham Əliyevə tükənməz minnətdar olduqlarını söyləyiblər.

**RƏFİQƏ HÜSEYNOVA**

# Azərbaycan xalqının düşməni iş başında!

## Leyla Yunus: "Azərbaycanlılar xristianları düşmən və Allahsız adlandırırlar"

***Bu gün Azərbaycan dövlətinə qarşı çıxış edən çoxsaylı xarici təşkilatlar və ayrı-ayrı fərdlər var ki, onlar açıq şəkildə düşmənçilik mövqelərini ortaya qoyur, bu vasitələrlə siyasi təzyiqlərini artırdıqlarını düşünürlər. Əbəs deyil ki, zaman-zaman həmin təşkilatlar "insan haqlarının qorunması" və s. tipli dırnaqarası əsaslarla "hesabatlar" hazırlayır, "bəyanatlar" səsləndirirlər". Bu kimi təşkilatların dayaq mərkəzlərindən biri də ermənipərəstlikləri ilə seçilən bir qrup "siyasi mühacirlərdir" ki, onlar bu istiqamətdə davamlı iş birliklərini qurmaqdadırlar.***



Bu arada, daim ermənipərəstliyi ilə gündəmdə qalan "Sülh və Demokratiya İnstitutu"nun direktoru Leyla Yunus Avropa Şurasında keçirilən toplantıların birində canlı yayıma qatılaraq, növbəti dəfə daxilindəki düşmən sevgisini və Azərbaycan xalqına qarşı olan aşkar nifrətini nümayiş etdirib.

L.Yunus guya "sülhpərvərlik" mövqeyindən çıxış edərək, ermənilərin dəyirmanına su tökən fikirlər səsləndirib. Belə ki, o, sərsəm fikirlər ifadə edərək, bildirib ki, guya azərbaycanlılar uşaqlarının 10 yaşlarının olmasına baxmayaraq, "xristianların azərbaycanlıların düşmənləri" olduğunu təlqin edirlər. Bununla yanaşı, azərbaycanlılar ermənilərı "qara paltarlı Allahsız kimi tanıdırlar".

Göründüyü kimi, L.Yunus sözügedən sərsəm düşüncələri ilə yalnız ermənilərin dəyirmanına su tökməyib, eyni zamanda, bütün dünyaya tolerant və multikultural dəyərləri ilə örnək olan Azərbaycan dövlətinə və xalqına qarşı xas olmayan şəkildə şərböhtan atıb, xristian ölkələri ilə Azərbaycan dövləti arasında bölücülük toxumu səpməyə cəhd göstərib.

Əbəs deyil ki, məhz həmin Leyla Yunus illərlə Ermənistanın xüsusi xidmət orqanlarının təlimatları əsasında işləyən müxtəlif erməni QHT-ləri ilə əməkdaşlıqlar edib, bu gün də həmin fəaliyyətini Avropada davam etdirməkdədir.

Maraqlı məqam isə budur ki, hazırda Leyla Yunusu dəstəkləyənlər, onu "siyasi mübariz" kimi təqdim edənlər bu gün "hakimiyyətə iddialıyıq" deyən radikal müxalifət "liderləridir". Əbəs deyil ki, AXCP sədri Əli Kərimli, Müsavat rəhbərliyi və s. bu kimi siyasi müxalifət partiyalarının təmsilçiləri uzun illər, hazırkı vaxtda da L.Yunusla əməkdaşlıq edir, onu öz sıralarında gördüklərini bildirirlər. Bu isə, bir reallığı sübuta yetirir - bu gün L.Yunus Avropada Azərbaycan dövlətinə və xalqına qarşı şərböhtan atırsa, onu dəstəkləyənlər də onun bu şər-böhtanına şərik çıxmış olurlar. Onlar dövlətin və xalqın düşməni obrazında bir daha özlərini ifşa etmiş oldular. Əgər belə olmasa idi, L.Yunusun bu çıxışını pisləyən bəyanat səsləndirərdilər. Lakin göründüyü və gözlənildiyi kimi, bu, baş vermədi.

***Rövşən NURƏDDİNOĞLU***

***P.S.*** *Xatırladaq ki, ötən il Xocalı soyqırımının anım günündə, Azərbaycanda keçiriləcək prezident seçkiləri ərəfəsində Avropada dövlətimizə qarşı mətbuat konfransı düzənləyən L.Yunus və bloqer Mehman Hüseynovun qardaşı Emin Hüseynov "nə üçün Xocalı soyqırımı barədə insanları məlumatlandırmırsınız" sualına istehza edib, gülərək sualı ünvanlayanı ələ salıblar. Hətta E.Hüseynov rus dilində "indi ağlayacağam" ifadəsini səsləndirərək, xalqımızın ağrı- acısını ələ salan fikirlər səsləndirmişdi.*

***AXCP sədri Əli Kərimlinin müxalifətdə olduğu dövrdən bu günə qədər müxtəlif və siyasi orientasiyaları tamamilə fərqli olan cinahlarla əməkdaşlıq etməsinə dair çoxsaylı faktlar mövcuddur. Separatçılardan, erməni lobbisindən tutmuş radikal təmayüllü dini təşkilatlara qədər hər kəsə, necə deyərlər, yol tapan Kərimlinin əsas məqsədi isə bəllidir - mitinqlərinə bacardığı qədər adam toplamaq, bunu qarşılarında öhdəlik götürdüyü xarici təşkilatlar qarşısında hesabat olaraq təqdim etmək, nəticədə, maliyyə vəsaitləri əldə edib, onu şəxsi məqsədlərinə xərcləmək. Əlbəttə ki, burada həbs olunanlar və s. kimi məsələlər də AXCP sədrinə dividendlər gətirməkdədir.***

# Əli Kərimli şeytanla əməkdaşlığa hazır olduğunu necə sübut edir?

## AXCP sədrinin əqidəsizliyi və prinsipsizliyi ortadadır!

### Əgər Kərimli şeytanla əməkdaşlığa hazır olduğunu deyirsə, bu zaman dindar kəsim onun nəyinə gərəkdir?

Yeri gəlmişkən, hələ illər öncə, Ə.Kərimli aşkar şəkildə bəyan etmişdi ki, öz məqsədlərinə çatmaq üçün, hətta şeytanla belə əməkdaşlıq etməyə hazırdır. Maraqlıdır, digərlərini qoyaq bir kənara, əgər Kərimli şeytanla əməkdaşlığa hazır olduğunu deyirsə, bu zaman dindar kəsim onun nəyinə gərəkdir? Yaxud dindar kəsim nəyə görə şeytanla əməkdaşlıq etməyə hazır olan birinin siyasətinə dəstək göstərir, məgər dinə görə bu, günah sayılmırmı?

Bu arada biz, xarici kəşfiyyat orqanlarının dəstəyi ilə Azərbaycanda silahlı yolla dövlət quruluşunu dəyişməyə cəhd edən radikal dini kəsimin - Taleh Bağırzadənin və ətrafına dəstək verənlərin Ə.Kərimlinin yan-yörəsində olduğunu xatırlaya bilərik. Misal üçün, "Milli Şura"nın daha öncəki mitinqlərində, eyni zamanda, uğursuzluqla nəticələnən 19 yanvar mitinqində, digər "siyasi məhbuslarla" yanaşı, T.Bağırzadənin də şəkillərinin qaldırıldığının şahidi olmuşuq. Bu fakt isə, digər faktları üzə çıxarır.



### Bu gün Əli Kərimlinin ətrafında dolaşanlar da eyni əqidəsizliyə və prinsipsizliyə sahib olan ünsürlər yığnağıdır

Məsələ ondadır ki, T.Bağırzadənin səs yazısından bəlli olur ki, Ə.Kərimli hələ əvvəl vaxtdan Talehin kimlərə biət etməsindən, Azərbaycanda heç də demokratik dəyərlər deyil, radikal dini cərəyan uğrunda mübarizə aparmasından xəbərdar olub. Bütün bunlara baxmayaraq, Kərimli hər zaman Bağırzadənin tərəfdarlarına meydan verir, üstəlik, bunu "ateistlərlə dindarlar qardaşdır" tipli sərsəm, yersiz, məntiqsiz və əsassız ibarələri ilə ictimaiyyətə sırımağa cəhdlər göstərir. Onda sual edilə bilər nə üçün, niyə görə və hansı səbəbdən? Bu suala elə Talehun özü cavab verir - çünki onun Talehin tərəfdarlarına ehtiyacı var.

Bir sözlə, mitinqlərində hansı "əqidəyə" xidmət etməsindən asılı olmayaraq, adam toplamaq. Əslində isə, bu reallığın özü sübut edir ki, Ə.Kərimlinin nə bəşəri, nə şərəfə söykənən, nə də, ümumiyyətlə, normal insanlarda olan əqidə, prinsip mövcud deyil. Ona görə də, şeytanla əməkdaşlığa hazır olduğunu deyir. Üstəlik, bu gün onun ətrafında dolaşanlar da eyni əqidəsizliyə və prinsipsizliyə sahib olan ünsürlər yığnağıdır.

Nəticə olaraq, qənaətə gələ bilərik ki, dövlətin və hakimiyyətin arxasında xalq faktoru gücləndikcə, xalq-dövlət vəhdəti möhkəmləndikcə, Ə.Kərimlinin şeytanla əməkdaşlıq etmək maraqları daha da artır. Bu maraq isə, AXCP sədrini elə şeytanın olduğu məkana -cəhənnəmə doğru sürətlə yuvarlanması prosesi ilə sonuclanacaq.

***Rövşən NURƏDDİNOĞLU***



## ÜZÜTÜPÜRCƏKLİLƏR

**RƏFİQƏ**

***Belə bir atalar misalı var: "Allah dəvəyə qanad versəydi, uçmamış dam qoymazdı", Nə yaxşı ki verməyib. Ancaq dəvə bu dağıdıcı müxalif düşərgənin "liderlərin"dən çox ağıllıdır. Dəvə çeynədiyini tüpürmür, elə çeynəyir-çeynəyir, sonda da udur. Ancaq dağıdıcı düşərgənin müxalifət "liderləri" bir sözün qulpundan tutub, elə ucuzluğa gedirlər ki, gedirlər... Çünki özləri də ucuzdurlar. Sonda da xalq üzünə tüpürür. Ancaq bu Ə.Krimli, C.Həsənli, İ.Qəmbər, A.Hacılı və digərləri bu üzlərini silib, o biri üzlərini çevirirlər.***

Bu üzütüpürcəklilər heç bir şeyi veclərinə almayaraq, həyasızcasına özlərini "siyasətçi" adlandıraraq, deyirlər ki, "siyasətdə" belə də ola bilər. Sözlərinin qarşısında "kim söz deyə bilər?" Ay bədbəxt, siyasət nə olduğunu bilirsən ki? Bir də satılıb-satan olanda, ortaya siyasət yox, "siyasi ət" çıxır. Bu gün həmin satan-satılan kiçik, türkiyəlilərin təbirincə desək, küçük adamlar virtual sallaqxanalardan özlərinin siyasi ətlərini camaata sırımağa çalışan Ə.Kərimlinin "sülaləsi" olan erməni qulbeçələrinə nökərçilik edən "siyasətçi" sayılır? Lap əsəblərim tarıma çəkildi. Belələrilə nə etmək lazımdır? Əlbəttə ki, baltalamaq! Və Ə.Kərimli kimi, "siyasi ət" kötüklərini məntiq kötüyünün üstünə uzadıb, elə baltalamaq lazımdır ki...

Ancaq Ə.Kərimli kimilər o qədər həyasız məxluqlardır ki, təki qrant alsınlar, min yerə də şaqqalanmağa razıdırlar. Çünki bu, o Ə.Kərimlidir ki, bütün fəaliyyətini, "facebook"da, kompüter qarşısında oturaraq, yersiz çıxışlar etməsi üzərində qurur. Stəkanda fırtına görüntüsünü yaratmağa cəhd etməyə çalışan Ə.Kərimli indi də ölkədə gedən uğurlu sosial islahatlara balta çalmağa. Dəfələlə bu Ə.Kərimli yeri gəlsə, qranta görə, hətta özünü auksiona çıxarmağa belə razı olardı. Təki ölkədə siyasi sabitlik pozulsun. İndi də ölkəmizdə keçiriləcək "Formula-1" ərəfəsi bu ət kötüyü, başlayıb sosial şəbəkələrdə qarayaxmalara. Ancaq xalq-iqtidar birliyi o qədər güclüdür ki, Ə.Kərimli kimi iblislər heç nəyə nail ola bilməyib, bilməyəcək də. Ona görə də, Ə.Kərimli öz gününə ağlasın.

İblis cildinə girən Ə.Kərimlinin xəyanət xronologiyasına nəzər saldıqda, onun siyasi fırıldaqçılıq üsullarına şeytan da həsəd aparar. Bu yerdə ASDP sədri Araz Əlizadənin dediklərini bir daha xatırlatmaq yerinə düşər: "Ə.Kərimli xəyanət yolu tutan ikinci şeytan cildinə girən iblisdir. Bu, faktdır, tarixdir. Bu, mənim şəxsi mövqeyim deyil. Bu, Ə.Kərimlinin fəaliyyətinin nəticəsi və adıdır".

Bax, budur Ə.Kərimlinin iblis xisləti və bu iblis xisləti AXCP sədrinin planı. Ancaq çi fayda ki, satqınçılıq və xəyanət yolu tutanların ömrü az olur. Necə ki, satqın, Vətən xaini Fəxrəddin Abbaszadə kimi. Tezliklə sən də cəzanı alacaqsan!

# Dini tolerantlıq Azərbaycan milli kimliyinin ayrılmaz hissəsidir

*Ümummilli Lider Heydər Əliyev: "Biz azərbaycanlılar heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq"*

***Birmənalı şəkildə demək olar ki, ölkəmizdə aparılan düzgün, məqsədyönlü siyasət nəticəsində əksər ölkələr üçün örnək olan milli və dini tolerantlıq mühiti yaradılıb. Artıq çağdaş Azərbaycan multikulturalizm məkanı kimi mədəniyyətlərin, dinlərin müxtəlifliyini yaşadan və inkişaf etdirən unikal ölkəyə çevrilib. Ölkəmiz o demokratik-hüquqi dövlətlərdəndir ki, insan hüquq və azdlıqlarının müdafizəsi fonunda, dövlət milli mənsubiyyətindən asılı olamayaraq, hər kəsə bərabərhüqulu yanaşma nümayiş etdirir. Bu əsas qanunumuz olan konstitusiyamızdada öz əksini tapıb. Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsində qeyd edilir ki, dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır".***



Azərbaycanda əhalinin 96%-i müsəlmandır. Ölkədə bundan başqa, xristianlıq və iudaizm dinləri də mövcuddur. Xristianların əksəriyyəti rus pravoslav və gürcü pravoslav kilsəsinə məxsusdur. Yəhudilərin çoxu dağ yəhudiləri və əşkinazi yəhudiləridir. Müstəqillik dövründə Azərbaycanda 2 minə yaxın məscid tikilib, son 10 il ərzində, 80 məscid əsaslı təmir edilib. Ölkədə rəsmi şəkildə 525 islam, 34 qeyri-islam təmayüllü dini icma, eyni zamanda, 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. Avropanın ən iri sinaqoqlarından biri 2003-cü ilin mart ayında, məhz Bakı şəhərində açılıb. Bütün bunlar isə, bir daha Azərbaycanda dinlərin bərabər yaşaması üçün bütün imkanların yaradıldığından xəbər verir.

### "Hər dinin özünəməxsus yeri var"

Ölkəmizdə, din dövlətdən ayrı olasa da, hökümət məsciddlərin, dini ocaqların tikiləməsinə, təmir və bərpa olunmasına hər zaman xüsusi diqqət götərib. 2001-ci ildə Ulu Öndərimiz Heydər Əliyevin imzaladığı Fərmanla Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu istiqamətdə çevik idarəetmə sisteminin qurulmasına imkanlar yaratmış oldu. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əsas vəzifəsi Azərbaycan Konstitusiyasının 48-ci maddəsinin tələbinə uyğun olaraq, dini etiqad azadlığı ilə bağlı olan digər qanunvericilik aktlarına riayət olunmasına nəzarəti təmin etməkdən, dini qurumlarla dövlət arasında münasibətləri daha ciddi tənzimləməkdən ibarətdir.

Söz yox ki, ölkəmizdə dini tolerantlıq mühitinin formalaşması və inkişafı Ulu Öndərimiz Heydər Əliyevin xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonar mütərəqqi xarakter almağa başlamışdır. Məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərildi. Dövlət-din münasibətləri beynəlxalq hüquq normaları müstəvisində tənzimləndi, xalqımız öz milli, dini bayramlarını azad və sərbəst şəkildə qeyd etmək hüququ qazandı. Uzun illər baxımsız qaldığına görə dağılmış ibadət ocaqları yenidən bərpa edilib, xalqın istifadəsinə verildi. "İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq Simpoziumda Ulu Öndərimiz Heydər Əliyev demişdir: "Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda islam dini ilə yanaşı, xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar".

Ölkəmizdəki mövcud multikurturalizmi qiymətləndirən Moskva və bütün Rusiyanın patriaxı II Aleksi hələ 2001-ci ildə Bakıda Dahi Öndərimiz Heydər Əliyevə müqəddəs Moskva Knyazı Daniel ordenini təqdim edərkən demişdi: "Ölkənizdəki tolerantlıq və dini dözümlülük başqa dövlətlər üçün nümunədir".

Roma Papası mərhum II İohann Pavelin xristianlığın katolik məzhəbinə etiqad edən ölkələrin israrlı dəvətlərinə rəğmən, məhz əhalisinin cəmi 0,5 faizini katoliklərin təşkil etdiyi Azərbaycana səfər etməsi isə, azsaylı millət və onların etiqad etdiyi dinlərə də sayğının, xoş münasibətin dönməzliyindən xəbər verir. Rum patriarxı I Varfolomey 2003-cü il aprelində Azərbaycanda rəsmi səfərdə olmuşdur. Ölkəmizdki mövcud dini durumu, dövlətin dini konfessiyalara göstərdiyi qayğını yüksək dəyərləndirən I Varfolomey demişdir: "Mən buradakı tolerantlığın səviyyəsindən məmnunam. Azərbaycanda hər kəs istədiyi dinə etiqad edir, istədiyi kimi ibadət edə bilir". Azərbaycandakı nümunəvi dini tolerantlığa heyranlığını gizlətməyən İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman isə Bakının İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar demişdir: "İSESCO bütün dünyaya çatdırmalıdır ki, siz necə də qədim və zəngin mədəniyyətə maliksiniz. Ölkənizlə əməkdaşlıq sahəsində imzalanan sənədlərin həyata keçirilməsi üçün biz öz tərəfimizdən hər tələbi yerinə yetirəcəyik və bu əməkdaşlıq digər üzv dövlətlər üçün nümunə olacaqdır".

### "Tolerantlığın ünvanı - Azərbaycan"

Azərbaycanda milli kimliyinin ayrılmaz hissəsi olan dini tolerantlıq 2003-cü ildə Ulu Öndərimizin ən layiqli siyasi varisi Cənab İlham Əliyevin Prezident seçilməsindən sonra yeni dövrün yeni tələblərinə uyğun davam etdirildi. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq, bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. 2009-cu il oktyabrın 13-dən 15-dək Azərbaycanın uğurla ev sahibliyi etdiyi İslam Ölkələri Mədəniyyət Nazirlərinin Konfransı çərçivəsində "Mədəniyyətlərarası dialoq" mövzusunda keçirilmiş "dəyirmi masa"da "Bakı Prosesi -sivilizasiyalar arasında dialoqa yeni çağırış" adlı rəsmi sənəd qəbul edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü "Bakı Prosesi"nin davam etdirilməsinin nəticəsi olaraq, 2011-ci ilin aprelində dövlət başçısının təşəbbüsü və bilavasitə təşkilatçılığı ilə Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Artıq ənənəvi xarakter alan forum hər dəfə 100-ə yaxın ölkədən 500-dən çox tanınmış ictimai-siyasi xadimi, görkəmli elm, mədəniyyət və incəsənət nümayəndəsini birləşdirir. Müzakirələr aparılır və təkliflər səslənir, bundan qazanan isə dünyamız olur. Belə vacib tədbirə, məhz Bakının ev sahibliyi etməsi isə forumun əhəmiyyətini daha da artırır. Ölkə Prezidenti İlham Əliyevin VI Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində dediyi tarixi fikirlər, yaddaşlardan silinməyəcək tezisə çevrilib:"Humanitar məsələlərin müzakirəsi çox önəmlidir. Çünki biz müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görürük. Azərbaycan bu sahəyə çox böyük önəm verən ölkələrdən biridir. Ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu, xüsusilə, qeyd etmək istərdim. Bu, çox önəmli beynəlxalq tədbirdir. Eyni zamanda, Bakıda dünya dinləri liderlərinin zirvə görüşü keçirilmişdir. Dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. VI dəfə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi onu göstərir ki, doğrudan da, Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu öz beynəlxalq fəaliyyəti, həyata keçirdiyi çoxsaylı layihələri ilə Azərbaycanın multikulturalizminin üstünlüklərini dünyada əyani şəkildə nümayiş etdirir. Fond "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində bugünədək Azərbaycanda və digər ölkələrdə onlarla tədbir və layihələr həyata keçirmişdir. Bu layihələr çərçivəsində dini abidələrdə, ziyarətgahlarda, tikililərdə təmirbərpa işləri aparılır, müxtəlif konfranslar və sərgilər təşkil edilir.Fondun Fransanın Luvr Muzeyində islam mədəniyyəti bölməsinin təşkilində, Strasburq və bu ölkənin digər regionlarında kilsələrin təmirində, eləcə də, Romadakı katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında yaxından iştirakı, Həştərxanda Müqəddəs Knyaz Vladimirin şərəfinə abidənin ucaldılması da, məhz ayrı-ayrı xalqların, konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan üzərinə düşən mənəvi borcu layiqincə yerinə yetirməyə çalışır: "Əgər müstəqilliyinin ilk dövrlərində Azərbaycan dünyada gedən dinlər və mədəniyyətlərarası dialoq prosesinin aktiv iştirakçısı idisə, indi demək olar ki, bu prosesin hərəkətverici qüvvəsinə çevrilib. Azərbaycan beynəlxalq miqyasda dinlərarası dialoq mərkəzinə çevrilməkdədir. Bunun təsdiqi olaraq, son illərdə Dünya Dini Liderləri Sammitinin, MDB Dinlərarası Şurasının, MDB Müsəlmanları Məşvərət Şurasının, Qafqaz Xalqları Ali Dini Şurasının toplantılarının Bakıda keçirilməsini qeyd etmək olar. Bundan başqa, Bakı 2009-cu ildə İslam Mədəniyyəti Paytaxtı Elan edilmişdi. İSESKO tərəfindən 2018-ci il üçün "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı" elan edilib. Gəncə və Şəki də "İslam Mədəniyyətinin Paytaxtları" layihəsində iştirak edəcək. Bütün bunlar dünyanın ölkəmizə tolerantlığın yüksək səviyyədə inkişaf etdiyi məkan kimi etimad göstərməsinin nəticəsidir".

Göründüyü kimi, Azərbaycanda milli və dini tolerantlıq mühiti ən yüksək səviyyədə təmin olunur. Ölkəmiz dünya miqyasında multikulturalizm məkanı kimi mədəniyyətlərin, dinlərin müxtəlifliyini yaşadan ölkə kimi tanınır. Bütün bunlar bir daha aparılan dövlət siyasətinin milli və dövlətçilik maraqlarına söykəndiyini deməklə yanaşı, dünyaya bir nümunə olduğunu da göstərər.

***Zakir Rəhimli***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqə üçün.*

# Xəyanətkarın ağı-qarası olmur

## Dövlətə xəyənət edənlərin hamısı cəzasını alacaq

***Bu gün ölkəmizin günü-gündən artan inkişafını görməyən, şəxsi maraqlarına görə milli dəyərimizi gözdən salan sapı özümüzdən olan baltalar var. Bu ünsürlər "siyasi mühacir" adı altında çörəyini yeyib, suyunu içdikləri vətənlərinə qarşı antitəbliğat kampaniyası aparmaqla erməni lobbisi tərəfindən lazımi maliyyə dəstəyi alırlar. Azərbaycanın uğurlu inkişafından qıcıqlanan və erməni lobbisinin maliyyələşdirdiyi bu əxlaqsız və satqınlar həyasızcasına çirkin əməllərindən əl çəkmirlər.***

Xarici anti-Azərbaycan qüvvələrin əlində oyuncağa çevrilən, qul psixologiyalarından yaranan erməni sevgiləri-ni, fürsət düşdükcə, açıq-aşkar nümayiş etdirməkdən belə utanmayan müxalif ünsürlər ictimai qınağın ən böyük cəza olduğunu unudurlar. Onu da unudurlar ki, Vətənə, xalqa xəyanət heç kimə başucalığı gətirə bilmədiyi kimi, heç vaxt da bağışlanılmayacaq. Ən əsası isə, itirilmiş mənəviyyatlarını milyonlar xərcləsələr də, bərpa etmək imkanında olmayacaqlar. Necə ki, bu gün bu əxlaqsız və satqın Ermənistan xüsusi xidmət orqanlarının agenti Faxrəddin Abbaszadə Azərbaycanın hüquq- mühafizə orqanları tərəfindən həbs olundu.



**Düşmən yalı ilə bəslənənlər sonda ifşa olunurlar**

Bu, belə də olmalı idi. Hər gün bir cinayətkar, Vətən xaini peyda olur, sonra da adını qoyurlar "siyasi məhbus" və başlayırlar bu cinayətkarın müdafiəsinə. Özü də kimlər müdafiə edir bu satqınları? Əlbəttə ki, bəllidir - xarici qüvvələrə nökərçilik edən, hər şeylərini... qrantlara satan erməni qulbeçələri. Qəribəsi də odur ki, qranta görə qaşınmayan yerdən qan çıxarırlar, nəticədə də, o qana bulaşan da özləri olur.

Bəli, haqq nazilər, amma üzülməz. Bu, o Fəxrəddin Abbaszadədir ki, uzun illərdir dövlətimizə qarşı açıq düşmənçilik fəaliyyəti ilə məşğul olmuş vətən xaini fevralın 28-də Rusiya Federasiyasında müvəqqəti yaşamaq hüququ müddətinin bitməsi ilə əlaqədar Moskva vilayəti Lyuberetsk şəhər məhkəməsinin deportasiya haqqında qərarı əsasında, erməni xüsusi xidmət orqanlarının məşhur agentlərindən biri olmaqla, Rusiyadan Azərbaycana deportasiya olunub. Uzun illər ərzində, Azərbaycan vətəndaşı F.Abbaszadə məqsədyönlü və metodiki şəkildə Azərbaycan xalqına qarşı siyasi informasiya müharibəsi aparıb, Bu gün onun Ermənistan mediası tərəfindən dəstəklənməsi və onun "məzlum obrazı"nın yaradılmasına cəhd edilməsində təəccüblü heç nə yoxdur: Görünən odur ki, düşmən ölkə "qiymətli" agentini itirib və ona görə də, hazırda çox ciddi narahatlıq içindədirlər.

Bu gün F.Abbaszadə kimi düşmən agentinin həbs olunması, bir daha göstərdi ki, kimliyindən və harada olmasından asılı olmayaraq, dövlətimizə qarşı fəaliyyət göstərən, ölkədə qarşıdurmalar yaratmaq və daxili sabitliyi pozmaq məqsədilə çağırışlar edən, xarici xüsusi xidmət orqanları ilə əməkdaşlığa cəlb olunaraq, vətənə xəyanət yolunu tutanların hamısının aqibəti belə olacaq və bir gün mütləq ölkəyə gətirilərək, qanunla müəyyən edilmiş cəzalarını alacaqlar. Heç kəs unutmasın. Bu dövlətin dayaqlarını sarsıtmaq mümkün deyil.

F.Abbaszadənin, hələlik, azadlıqda olan və onun kimi düşmənlə əməkdaşlıq edən bütün "həmfikirləri", əmin ola bilərlər ki, onları da satqınlıqlarına görə ədalətli cəza gözləyir.

***Rəfiqə HÜSEYNOVA***



# Nankor xislətli satqın

## Və yaxud Gültəkin Hacıbəyli - bir medalın iki üzü

Bir medalın iki üzü Gültəkin Hacıbəylidir. Bu, o G.Hacıbəylidir ki, hardan çox maliyyə əldə edibsə, üzünü o tərəfə tutur, yəni hər sifətdə ola bilir. Elə bu yerdə onun "Baxış bucağı" verilişini xatırlatmaq kifayətdir ki, onun hansı sifətdə olduğunun şahidi olasan. Belə ki, həmin verilişdə çıxışı boyu siyasi məhbuslardan, onların çətinliklərindən fikirlər söyləyib və ağılsız iddialar irəli sürüb. Jurnalist həmsöhbətinə belə bir sualla müraciət edərək: "Gültəkin Hacibəyli üçün nə dəyişdi ki, hakimiyyətin aktiv təbliğatçısı müxalifətin ən böyük birliyində təmsil olunmağı qərara aldı?" sualına əsəbi halda etiraz bildirib. Jurnalist onu da bildirib ki, G.Hacıbəyli verilişdən əvvəl özü və "Milli Şura"nın heç nəyə yaramayan sədri Rüstəm İbrahimbəyov barəsində sualların verilməsinə də etiraz edib. Bu məqamda, G.Hacıbəylinin "Milli Şura" yaranan ərəfədə müxalifət partiyalarından biri olan KXCP-nin qərargahında, kiçik bir otaqda saatlarla davam edən müzakirələrdə dayanmadan "Ya Rüstəm İbrahimbəyov, ya da yenə Rüstəm İbrahimbəyov"- deməsi ilə bağlı müxalifət mətbuatında gedən informasiyalar yadıma düşür. Bu gün isə G.Hacıbəylinin R.İbrahimbəyli ilə bağlı suallardan imtina etdiyinə təəccüb də etmirəm. Bax, bir medalın iki üzü budur. Qeyd olunan bu hadisə də "demokratiya" libasına bürünən, xalqa "demokratik prinsiplərdən" dərs keçən, yeri gəldi-gəlmədi, elə bu günlərdə iqtidarı tənqid etməsi nankor xislətli satqın G.Hacıbəylinin əsl mahiyyətini və gerçək simasını bir daha ortaya qoyur. Bu yerdə məşhur bir atalar məsəlini xatırlamasan olmur: utanmasan, oynamağa nə var ki?

**Gültəkin Hacıbəylinin cinayətkar əməlləri...**

"Milli Şura"nın "primadonnası" deyə bilər ki, nəyə əsaslanıb, belə deyirsiniz? Faktlara. Bəli vaxtilə Milli Məclisin deputatı olarkən, yol verdiyi qanunsuzluqlarla ələ keçirdiyin mülkləri xatırladanları lənətləyir, söyür, təhdid edir. Görünür, Hacıbəyli xromosomun daxili hissələrindən birinin 180 dərəcə dönməsi nəticəsində quruluşunun dəyişməsi kimi bir proses yaşayır. Bunun nəticəsində də, deputatlıq dövründə hər addımda təhqir etdiyi, marginal qrupa çevrilmiş müxalifətçilərlə yanyana dayanaraq, dövlətin ünvanına böhtanlar yağdırır. Abır yaxşı şeydir, bu isə G.Hacıbəyli kimilərdə olmayıb. G.Hacıbəyli hansı üzlə, hansı abırla mitinq çağırışı edirsən və xalqa "dayağından" danışırsan? Bu, sən G.Hacıbəyli deyilsən ki, deputat olduğun dönəmdə Mehdiabad qəsəbəsindəki "Əlillər" massivindən qanunsuz olaraq 12 sot torpaq sahəsini ələ keçirdin. Eyni zamanda, deputat imtiyazından qanunsuz şəkildə istifadə edən qadın əldə etdiyi torpağın qonşuluğunda yaşamış 1-ci qrup əlil Vüqar Süleymanovun da ərazisinin bir hissəsini ələ keçirdin. Həmçinin, Goranboy rayonu, Xan Qərvənd kəndində 92 sotluq torpaq sahəsi və onun üzərində yerləşən 400 kv. metr sahəsi olan nəhəng villa, Abşeron rayonu , Xırdalan şəhərində 60 sot torpaq sahəsi Goradil kəndində 30 sot torpaq sahəsi, Abşeron rayonu, Mehdiabad qəsəbəsində hər biri 4 sot olmaqla 3 yerdə topaq sahəsi, Şamaxı rayonu, Qalebuğurd kəndində 12 sot torpaq sahəsi, Səbail rayonu, Şeyx Şamil küçəsində ofis, Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi, ev 251 a ünvanında 178,18 kv. metr sahəsi olan mənzil və sairə... Hələ bu, harasıdır? "Qadın simvolu"na çevrilməyə iddialı olan G.Hacıbəylinin 5 il deputatı olduğu Goranboy rayonunda qanunsuz olaraq hektarlarla torpaq sahələrini zəbt edib. Bütün arqumentlərdən sonra şəxsi ambisiyalarını hər şeydən üstün tutan, yalnız xalq, onun rifahı barədə düşünən kimi göstərən G.Hacıbəyli kimi nankor xislətli satqınları xalq yaxşı tanıyır. Ona görə də, məhz bütün bu reallıqlardan sonra G.Hacıbəylinin ədalətdən danışmağa mənəvi haqqı yoxdur. Nə Azərbaycan barədə, nə də adicə insanlıq ətrafında. Çünki onun atdığı iyrənc, mənfur addımların hər biri xəyanətkarlıq, milli satqınçılıq olmaqla yanaşı, həm də qeyri-insanidir. Bu səbəbdən, belələrinin yeri cəmiyyət arasında ola bilməz!

***R.HÜSEYNOVA***



**Təhmasib Novruzov**

# Tarixin bəxş elədiyi "qara miras"lar

Ötən yazılarımın birində, bu millətin nümayəndəsi kimi tanınan, amma damarlarında bu millətin düşmənlərinin qanı axanlarla bağlı fikirlərimi oxucularla bölüşmüşdüm. Gözlədiyim kimi, həmin yazı, birmənalı qarşılanmadı, mənimlə razılaşanlar da oldu, dodaq büzənlər də. Razılaşanlar öz yerində, Allah onlardan razı olsun. Hətta məni kəskin qınayanlar da oldu ki, bu yazımı da onlara "ithaf" edirəm. Baxaq görək, mən haqlıyam, yoxsa onlar?

Lap təzəcə aldığım məlumata görə, dini təbliğat adı altında anti-Azərbaycan fəaliyyətinə görə Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən ifşa edilərək həbs olunan Taleh Bağırzadənin yeni səs yazıları ortaya çıxıb. Səs yazısından bəlli olur ki, Əli Kərimli Talehin kimə "biət" etməsindən, Azərbaycanda heç də demokratik dəyərlər deyil, dini dəyərlər uğrunda mübarizə aparmasından xəbərdar imiş. Bununla belə, ona və onun tərəfdarlarına meydan verir, onlarla işbirliyi qururmuş. Sözdə demokratiyadan, dünyəvi cəmiyyətdən, Azərbaycan dövlətçiliyindən pafosla danışan Ə.Kərimlinin, həm rəhbərlik etdiyi siyasi təşkilatın Nizamnaməsinin, həm də, Azərbaycan qanunlarının ziddinə olaraq belə qurum və şəxslərlə işbirliyi qurmasının başlıca səbəbi də, elə həmin səs yazısında T.Bağırzadənin dili ilə açıqlanır. Çünki onun Taleh tərəfdarlarına ehtiyacı varmış. Başqa sözlə, meydanları doldurmaq üçün Taleh tərəfdarları ilə sıcaq münasibətlər qumalı imiş! Meydanlarda milli dəyərlərdən, Qərbə inteqrasiyadan, müasirləşmədən, dünyəvilikdən ağız dolusu danışan bu siyasət dəllalı üçün şəxsi istəklərindən başqa heç bir dəyərin olmadığı, hansısa prinsipə və əqidəyə sahib olmadığı bir daha təsdiqini tapdı. Beləsinin damarlarında təmiz Azərbaycan-türk qanı axsaydı, dövlətinin taleyi ilə bağlı taleyüklü məsələlərdə yükü atıb, Azərbaycanı bəlalara yuvarlamağa cəhd edən Talehi tutardımı? Təbii ki, yox.

Yaxud xoruz səsi eşitsə də, hələ çoxlarına bəlli olmayan daha təp-təzə fakta diqqət edək. Rusiyada yaşayan və ermənilərlə separatçılıq fəaliyyətinə görə, ifşa olunaraq, Azərbaycan xüsusi xidmət orqanları tərəfindən həbs edilən Fəxrəddin Abbaszadənin indiki durumu Ermənistan xüsusi xidmət orqanlarına məxsus Voskanapatı və Rusiyadakı erməni diasporuna məxsus Yerkraması ciddi təşvişə salıb. Belə ki, onların gecə-gündüz yatmadan F.Abbaszadə üçün əldən-ayaqdan getmələri, əslən azərbaycanlı olan (yəni sənədlərdə belə yazılır), ancaq anti-Azərbaycan fəaliyyəti göstərən, düşmənlərlə separatçılığa belə gedən F.Abbaszadənin Ermənistan dövləti və erməni diasporası üçün çox önəmli simalardan (oxu: simasızlardan) biri olduğunu deməyə əsas verir.Əvvəlki vaxtlarda biz Ermənistanın həm dövlət, həm də diaspora dairələrinin Leyla və Arif Yunuslarla bağlı belə əndişələndiklərinin şahidi olmuşduq. Görünür, bu adamlara həm işğalçı dövlət, həm də diaspora o qədər maya buraxır ki, mayalarının batması ilə heç cür barışmaq istəmirlər. Nə isə, ermənilərin mayalarının batması yox, heç özlərinin batmaları da bizim üçün maraqlı deyil, necə deyərlər, pul onların, batıran buqələmun da onların. Biz ha deməmişdik ki, gəlib içimizdən zina törəmələrini tapıb, pullarını onların casusluqlarına xərcləsinlər! Millət orda acılqdan qırılır, bunlar pullarını anti-Azərbaycan, anti-türk casusluq fəaliyyətinə xərcləyirlər. F.Abbaszadə kimi natəmiz qanlıları da asanlıqla tapıb, "verbovat" eliyirlər. İndi biz, necə inana bilərik ki, bu simasını itirmişin damarlarında azərbaycanlı-türk qanı axır?

Yadıma böyük klassikimiz Mirzə Ələkbər Sabirin bir-iki misrası düşdü:

Pəs elə isə, bu ləinin də işi qullabıdır. Dini-imanı danıb, yoldan azıbdır, babıdır!

İndi damarlarında düşmən qanı axanlar haqqında yazıma görə mənə irad tutanlar papaqdan-zaddan qoysunlar qabaqlarına, yaxşı-yaxşı düşünsünlər. Onda görərlər ki, mən haqlıymışam. Sabirin ifadəsi ilə desək, bu ləinlər, bu babılar hardan peyda olurlar axı? Deməli, qanlarında haramzadalıq, bəzilərininkində, hətta zinalıq toxumu o qədər çoxdur ki, yüz illərdir nəsil dəyişir, amma onların (yəni ləinlərin, babıların) qanları təmizlənmir ki, təmizlənmir. Odur ki, belələrinə rast gələndə (bu gedişlə, deyəsən, hələ çox rast gələcəyik), təəccüblənib eləmək lazım deyil. Tarixin millətimizə bəxş etdiyi "qara miras"dır ki, onu da nə qədər yuyuruq ağarmır. Biz yumağımızı davam etdirək, onlar qara qalmaqda olsunlar. Yəqin ağaran vaxtları olar, inşaallah!

***İnsan hüquq və azadlıqlarının təminatı sahəsində həyata keçirdiyi ardıcıl islahatlarla demokratik idarəetmə prinsiplərinə sadiqlik nümayiş etdirən Azərbaycan bu siyasətin mühüm tərkib hissəsi kimi ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi və cəza siyasətinin humanistləşdirilməsi məsələlərinə də ciddiliklə yanaşır. Respublikamızın iqtisadi inkişaf dinamikasına adekvat şəkildə gerçəkləşdirilən bu islahatlar liberal mahiyyəti ilə insan amilinin cəmiyyətdə ali meyar kimi qəbulunu şərtləndirmişdir.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Dövlətin humanistləşmə siyasətinin insan haqlarının müdafiəsinə təsiri

Hüquq elmləri doktoru, professor İsaxan Vəliyev yazır: "Bu nöqteyi-nəzərdən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı keyfiyyətcə yeni mərhələdə məhkəmə-hüquq islahatlarının səmərəliliyinin daha da yüksəldilməsinə xidmət edir. Dövlət başçısının humanizmin təntənəsinə xidmət edən bu Sərəncamı Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi ədliyyə və məhkəmə-hüquq islahatlarının keyfiyyətcə yeni mərhələdə uğurlu davamı kimi cəmiyyətdə yüksək qiymətləndirilir.

Xatırlatmaq yerinə düşər ki, Ulu Öndər müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdə ciddi siyasi iradə nümayiş etdirərək, cəza siyasətinin humanistləşdirilməsi sahəsində inqilabi islahatların gerçəkləşdirilməsini təmin etmişdir. Yeni dünya nizamının reallıqlarını nəzərə alan Ulu Öndərin nəcib təşəbbüsü ilə respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində əsas beynəlxalq Konvensiyalara qoşulmuşdur.

1995-ci ildən Ulu Öndərin rəhbərliyi altında hazırlanaraq, ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş ilk müstəqil konstitusiya hüquqi islahatların daha sürətli, ardıcıl və çevik mexanizmlər üzərində aparılmasını təmin etmişdir. Bu mərhələdən avrostrukturlara inteqrasiya prosesinə fəal surətdə qoşulan respublikamız Avropa Şurası ilə əməkdaşlığa ciddi önəm verərək ölüm hökmünün ləğvi istiqamətində zəruri tədbirlər həyata keçirmişdir. Bu baxımdan, 1995-ci ildən ölüm hökmü cəzası üzərində moratoriumun qoyulmasını, 1998-ci ilin 10 fevralında isə bu cəzanın tamam ləğv edilməsini xüsusi vurğulamaq lazımdır.

Avropa Şurasının 1983-cü ildə qəbul etdiyi İnsan Hüquqlarına dair Konvensiyanın 6 saylı Protokolunda ölüm hökmünün yolverilməzliyi, birmənalı tərzdə, əksini tapmışdır. Dünyanın ali varlığı, əşrəfi sayılan insanın, hər hansı səbəbdən, ölümə məhkum edilməsi humanizm və insanpərvərlik prinsipləri baxımından qətiyyən qəbul olunmur."

Ümumbəşəri dəyərlərə, hər bir fərdin mənafeyinin əsas götürüldüyü hüquqi dövlət quruculuğu prinsiplərinə, həssas münasibətin əyani təcəssümü olaraq, Azərbaycanda məhkumların əfv edilməsi - bağışlanması da təqdirəlayiq ənənəyə çevrilmişdir. Əfvetmə institutunun bərpası və Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyasının yaradılması bu istiqamətdə atılmış mühüm addım kimi vurğulanmalıdır. 1995-2003-cü illərdə Ümummilli Lider Heydər Əliyev tərəfindən 32 Əfv Fərmanı imzalanmış, bu Fərmanlar 3104 məhkuma şamil edilmişdir.

İ.Vəliyevin fikrincə, Ulu Öndərin təşəbbüsləri ilə Azərbaycanda Amnistiya Aktlarının qəbulu da mütərəqqi ənənəyə çevrilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 9 maddəsinin 1.19 bəndinə əsasən, amnistiya haqqında qərar layihəsi qəbul etmək hüququ Azərbaycan Respublikası Milli Məclisinə məxsusdur. Amnistiya dövlətin cəza siyasətinin humanistləşdirilməsi siyasətindən irəli gəlməklə yanaşı, Azərbaycan Cinayət Məcəlləsinin 41-ci maddəsində də əksini tapmışdı. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996-2003-cü illərdə 8 amnistiya haqqında qanun imzalamış, bu Amnistiya Aktları, ümumilikdə, 77 mindən artıq məhkuma şamil edilmişdir.

Bu istiqamətdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın xüsusi xidməti xalqımız və beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Mehriban xanım Amnistiya Aktlarının qəbul olunması ilə bağlı indiyədək 4 dəfə Milli Məclisə müraciət etmiş, minlərlə ailənin, vətəndaşımızın sevincinə səbəb olan Atmnistiya Aktlarının qəbul və icra edilməsinin təşəbbüskarı olmuşdu. Birinci Xanımın xeyirxah təşəbbüsü ilə 2007-ci il mayın 8-də qəbul olunmuş qərarla 9877, 2009-cu il 17 mart tarixli qərarla 9564, 2013-cü il mayın 20-də Umummilli Lider Heyder Əliyevin 90 illiyi münasibətilə 10 min, 2016-cı il mayın 20-də 28 May Respublika Günü münasibətilə 10 min məhkum barəsində Amnistiya Aktı qəbul olunmuşdur.

Ulu Öndər Heydər Əliyevin "İslah-əmək müessisələrində və istintaq təcridxanalarında qanunçuluğun möhkəmləndirilməsi, cəzaların icrasının təmin edilməsi və hüquqi islahatların həyata keçirilməsinə dair tədbirlər haqqında" 1999-cu il 11 fevral tarixli, "Azərbaycan Respublikasında hüquqi islahatların həyata keçirilməsi, məhkəmələrin, islah-əmək müəssisələrinin və istintaq təcridxanalarının işinin yaxşılaşdırılması ilə əlaqədar əlavə tədbirlər haqqında", eləcə də, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin istintaq təcridxanalarının Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin tərkibinə verilməsi haqqında" 1999-cu il 9 oktyabr tarixli fərmanları respublikamızda cəza siyasətinin humanistləşdirilməsi sahəsində köklü islahatların aparılmasında dönüş nöqtəsi olmuşdur. Cəzaçəkmə müəssisələrinin, istintaq təcridxanalarının Ədliyyə Nazirliyinin tərkibinə verilməsi MDB məkanında ilk dəfə, məhz Azərbaycanda həyata keçirilmiş, bununla da, Azərbaycanda vahid islah-təsir siyasətinin gerçəkləşdirilməsinə, penitensiar müəssisələrin fəaliyyətinin Avropa Şurası standartlarına uyğunlaşdırılmasına təkan verilmişdir.

İ.Vəliyev yazır: "Ulu Öndərin möhkəm təməllər üzərində əsasını qoyduğu humanist və insanpərvər siyasəti bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev son 14 ildə əfvetmə institutunun çevik və işlək mexanizmlər əsasında fəaliyyətini təmin etmişdir. Prezident İlham Əliyevin ötən müddədə ölkədə siyasi barışığın, vətəndaş həmrəyliyi və sülhünün təmin olunması istiqamətində atdığı addımlar onun ədalətli və humanist rəhbər obrazını şərtləndirən amillər sırasında xüsusi vurğulana bilər.

Hazırkı qlobal böhran şəraitində iqtisadi inkişaf tempini qoruyubsaxlayan Azərbaycan insan hüquq və azadlıqlarının aliliyinin təminatına xidmət edən mütərəqqi hüquq islahatlarının daha da genişləndirilməsini mühüm vəzifə olaraq qəbul edir. İnsan amilinin ölkədə həyata keçirilən çoxşaxəli islahatların əsasında yer alması ölkənin məhkəmə-hüquq sisteminin davamlı şəkildə müasirləşdirilməsini, habelə, cəmiyyətin dinamik inkişafından irəli gələn mütərəqqi yeniliklərin ali hüquqi qüvvəyə malik konstitusiya və qanunlarda əksini tapmasını da qaçılmaz zərurətə çevirir. Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərə ictimai münasibəti öyrənən 2016-cı ilin 26 sentyabr referendumu digər mühüm sahələrlə yanaşı, məhkəmə orqanlarının fəaliyyəti ilə bağlı bəzi məsələləri də özündə ehtiva etmiş, ümumən ədalət mühakiməsinin keyfiyyətinin yüksəlməsinə yeni təkan vermişdir."

Sərəncamla penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin təmin olunması, müasir texnoloji vasitələrin tətbiqi və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi sistemində Probasiya Xidməti yaradılması nəzərdə tutulmuşdur. Yeni xidmətin yaradılmasında məqsəd cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına səmərəli nəzarətin təşkili və sahədə idarəetmənin təkmilləşdirilməsidir.

İ.Vəliyev yazır: "Bu cəhətdən penitensiar xidmətdə işləmək üçün kadr hazırlığı da mühüm vəzifə olaraq xüsusi aktuallıq kəsb edir. Sərəncamın ruhundan irəli gələn vəzifələrin icrası müasir tələblərə cavab verən kadrların hazırlanmasına yeni baxış və təzə yanaşmanın zəruriliyini qarşıya qoyur. Bu baxımdan, Bakı Dövlət Universiteti hüquq fakültəsində penitensiar xidmətlə bağlı ixtisaslaşmanın aparılması, eləcə də, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasına təhsilin bakalavr pilləsi üzrə penitensiar xidmət üçün kadr hazırlığına icazə verilməsi qarşıya qoyulan məqsədə çatmağı daha da asanlaşdıra bilər.

Ümumilikdə, ölkə rəhbərinin sözügedən sərəncamında cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə elektron-nəzarət vasitələrinin tətbiqi; məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulmuş qaydada çəkilməsi və məhkumlar tərəfindən rejim qaydalarına ciddi riayət olunmasının təmin edilməsi; bu sahədə korrupsiyaya şərait yaradan və digər neqativ halların qarşısının alınması üçün tədbirlərin görülməsi; ictimai işlər cəzasının format icrası təcrübəsinin qarşısının alınması, ictimai işlər və azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan digər cəzaların icrasına effektiv nəzarətin təmin edilməsi; azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpa edilməsi və sair məsələlər əksini tapmışdır. Eyni zamanda, ibtidai istintaq orqanları və məhkəmələr tərəfindən qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına ciddi əməl olunması; cəzanın və qətimkan tədbirinin məqsədlərinə şəxsi cəmiyyətdən təcrid etmədən nail olmaq üçün alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi; cinayət qanunvericiliyinin prinsiplərinə və cəza təyinetmənin ümumi əsaslarına ciddi riayət edilməsi; cinayət təqibi və cəzaların icrası zamanı qeyri-prosessual münasibətlərə yol verilməməsi, korrupsiya və vəzifədən sui-istifadə hallarına qarşı mübarizədə, daha ciddi tədbirlərin görülməsi fundamental prinsiplər kimi önə çəkilmişdir."

Göründüyü kimi, cinayət törətmiş şəxslərin cəmiyyətdən təcrid edilmədən islah olunmalarına zəruri şəraitin yaradılması Sərəncamla ciddi vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur. Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin yaradılması isə bu və digər məqsədlərin gerçəkləşdirilməsinə xidmət edir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

## Fastfud insan sağlamlığı üçün zərərlidir!



İllinoys Universitetinin alimləri tərəfindən aparılan tədqiqatlar nəticəsində burger və pitsa kimi zərərli yeməklərin istifadəsinin tez bir zamanda ürək-damar sistemində mənfi dəyişikliklərə gətirib çıxaracağı məlum olub. "The Daily Mail" yazır ki, bu zaman damarlar daha az elastik olur.

Aparılan hər iki tədqiqatın nəticəsi birmənalı olaraq, aşağı sıxlıqlı lipoproteinlərin (ASLP) zərərli olmasını və onların daha az yayılan oksidləşdirilmiş versiyasını göstərib. Birinci tədqiqat çərçivəsində laboratoriya siçanlarını (iki qrupda) balanslaşdırılmış qida ilə yedizdirib və yaxud da Qərb diyetasında (yağ və karbohidratlar çox, zülal az; əsasən fastfud) saxlayıblar.

İkinci qrupda da elastiklik kifayət qədər tez itirilib. Öz növbəsində, insanın endotelial hüceyrələri ilə aparılan işlərdə məlum olub ki, ASLP və onların oksidləşdirilmiş versiyası hüceyrə membranlarını daha bərk və qalın olmağa məcbur edir. Birlikdə onların mənfi effekti güclənib. Bununla belə, hüceyrə membranını pis tərəfə dəyişmək üçün çox cüzi miqdarda oksidləşdirilmiş ASLP kifayət edir. Məlumdur ki, oksidləşdirilmiş ASLP damarda yığılmaların və tıxanmaların əmələ gəlməsinə səbəb olur.

## Alimlər: Parkinson xəstəliyi bağırsaqlarda başlayır



ABŞ-da aparılan yeni tədqiqatlar göstərib ki, Parkinson xəstəliyi bağırsaqlarda başlayır. Tədqiqatçı alimlər əlavə ediblər ki, apendiks (kor bağırsaq) beyin hüceyrələrini məhv edən zəhərli proteinlərin mənbəyi kimi Parkinson xəstəliyi ehtimalını artırır. Kor bağırsağı kəsilib götürülən insanlarda bu xəstəliyə yaxalanma ehtimalı da azdır.

AZƏRTAC BBC-yə istinadla xəbər verir ki, Miçiqandakı Van Andel Universitetində aparılan tədqiqatlar zamanı müalicəsi olmayan bu xəstəlikdən əziyyət çəkən 1,7 insanın son 50 ildə tərtib olunmuş xəstəlik tarixçəsi araşdırılıb. Tədqiqatların "Translational Medicine" jurnalında dərc olunmuş nəticələrinə görə, Parkinson xəstəliyi bağırsaqlarda başlayır və apendisit əməliyyatı olan insanların xəstələnmə ehtimalı 20 faiz azdır.

Məlum olduğu kimi, qalın bağırsağın çıxışında yerləşən apendiks heç bir funksiyası olmayan orqandır. Tədqiqatlar göstərib ki, onun içərisində olan "alfa sinüklein" adlı zəhərli protein Parkinson xəstələrinin beyin nahiyəsində də mövcuddur. Lakin alimlər bildiriblər ki, sözügedən xəstəlik sırf bu problemlə əlaqəli deyil və apendiksin kəsilməsi onu tamamilə aradan qaldırmır. Zəhərli proteinin məhz bağırsaqlarda böyüyərək "Vaqus" sərhədi (ağciyər-mədə sərhədi) vasitəsilə beyinə keçməsi faktı da sübut olunub. Tədqiqat qrupunun üzvü Vivian Labriye bildirib ki, bu nəticələr əsasında insanlara Parkinson xəstəliyindən uzaq olmaq üçün apendisit əməliyyatı olmağı tövsiyə etmək düzgün deyil. "Alfa sinüklein"i nəzarətdə saxlamaq üçün daha çox proteinin yaranmasının qarşısını almaq daha ağlabatandır. Onun sözlərinə görə, bu səbəbdən Parkinson xəstələri tez-tez mədə-bağırsaq problemlərindən şikayət edirlər. Britaniyadakı "Parkinson's UK" təşkilatının üzvü Kleyr Beyl qeyd edib ki, xəstəliyin bağırsaqlardan başlaması ilə bağlı tədqiqatın nəticələri mühümdür. O əlavə edib: "Bu, inqilabi bir kəşfdir və Parkinson xəstəliyinin qarşısının alınmasına, habelə onun müalicəsinə kömək edəcək". Tədqiqatlar zamanı bütün insanların apendiksində "alfa sinüklein" proteini olduğu müəyyən edilib. Parkinson xəstələri ilə sağlam insanların protein tərkibi tamamilə fərqlidir. Eyni zamanda, alimlər hesab edirlər ki, nədən insanların yalnız bir qisminin Parkinson xəstəliyinə tutulması səbəblərini öyrənmək üçün zamana ehtiyac var.

**ELAN**

**Bakı şəhəri, Xətai rayonu, Naximov küçəsi, ev 13b, mənzil 61 ünvanda yaşayan Dadaşov Cavid Aydın oğlunun adına verilmiş seriya RX 0005933 saylı mənzilin çıxarışı itdiyi üçün etibarsız sayılır.**

## Bakı 14 ildən sonra yenidən bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək




Azərbaycan Gimnastika Federasiyası ilin ən önəmli yarışlarından birinə hazırlaşır. Bakı 14 ildən sonra - sentyabrın 16-22-də bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək.

AZƏRTAC federasiyaya istinadla xəbər verir ki, zərif gimnastlar Milli Gimnastika Arenasında 1 həftə boyunca öz güclərini sınayacaqlar. Həm fərdi gimnastlar, həm qrup hərəkətləri komandaları ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparacaq, həmçinin komanda hesabında da ən yaxşıların adları açıqlanacaq.

Qeyd edək ki, dünya çempionatı "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyacaq. Çempionat yalnız medalçıları deyil, həm də Olimpiadaya namizədlərin adlarını da müəyyənləşdirəcək. Belə ki, fərdi proqramda çoxnövçülük üzrə ilk 16 yerdə qərarlaşan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) lisenziya əldə etmiş olacaq. Qrup hərəkətləri komandalarına gəldikdə isə, ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Bu ilin çempionatında isə çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Tokioya vəsiqə qazanacaq.

## "Real" öz meydanında "Ayaks"a uduzub



Futbol üzrə UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinin cavab oyunlarına start verilib. SİA-nın məlumatına görə, 1/4 finala yüksələn ilk iki komanda artıq müəyyənləşib. "Real" doğma meydanda "Ayaks"la qarşılaşıb. Amsterdamda 2:1 hesabı ilə qalib gələn Madrid klubu ev matçına üstünlüklə çıxsa, gözlənilmədən rüsvayçı məğlubiyyətlə üzləşib. Madrid klubu doğma azarkeşləri qarşısında hollandiyalılara rüsvayçı hesabla uduzub - 1:4. Bu nəticədən sonar kral klubu UEFA çempionlar Liqası ilə vidalaşıb. "Ayaks" isə növbəti mərhələyə vəsiqə qazanıb.

"Borussiya" isə Almaniyada "Tottenhem"i qəbul edib. İlk görüşdə 3 cavabsız qol buraxan Dortmund təmsilçisi bu dəfə də məğlub olaraq, mübarizəni dayandırıb.

## "Çelsi" FIFA-nın qərarına rəsmən etiraz edib




İngiltərə təmsilçisi "Çelsi" FIFA-nın kluba transfer qadağası çıxarması ilə bağlı qərarına rəsmi şəkildə etiraz edib. "Report" "Sky Sports"a istinadən xəbər verir ki, müvafiq sənəd artıq quruma daxil olub. Qeyd edək ki, FIFA-nın qərarına əsasən "Çelsi" iki transfer pəncərəsində yeni futbolçu qeydiyyatdan keçirə bilməyəcək. London təmsilçisi hazırda 28 turdan sonra 56 xalla İngiltərə Premyer Liqasında 6-cı yerdədir.

## Mərakeş Qran-Prisində Azərbaycanı bir cüdoçu təmsil edəcək



Martın 8-dən 10-dək Mərakeşdə keçiriləcək kişilər və qadınlar arasında Qran-Pri turnirində Azərbaycanı 1 cüdoçu təmsil edəcək. Beynəlxalq Cüdo Federasiyasının saytında yer alan məlumata görə, yarışlarda yığmamızın üzvü Aleksandra-Larisa Florian (52 kq) qüvvəsini sınayacaq. Nüfuzlu turnirdə 71 ölkədən 500-ə yaxın cüdoçunun iştirakı gözlənilir. Qeyd edək ki, idmançı yığmamızın heyətində ilk dəfə Praqada keçirilən qadınlar arasında açıq Avropa kubokunda iştirak edib. O, debüt çıxışında yarımfinalda məğlub olub. Təmsilçimiz bürünc medal uğrunda qarşılaşmada isə fransalı Lusile Duporta uduzub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**